# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 75

*Milli Məclisin iclas salonu.*
*12 oktyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Z.Əsgərov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
|---|---|
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında (ikinci oxunuş).

2. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişik-

liklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

4. “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

5. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

7. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. “Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. “Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizə sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

16. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

17. “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

18. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi

barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

20. Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

21. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

23. "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

24. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

25. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

26. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

27. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respub-

likasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

28. Azərbaycan Respublikasının "Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

29. "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

30. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

31. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

32. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

33. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

34. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi

barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

35. “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

36. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

37. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

38. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

39. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

40. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

41. “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

42. “Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

43. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

44. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası

qanununun layihəsi barədə (ikinci oxunuş).

45. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

46. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

47. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

48. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

49. "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

50. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

51. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

52. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

53. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

54. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Sevinc Hüseynova, Tahir Kərimli, Fərəc Quliyev, Gövhər Baxşəliyeva, Elman Nəsirov, Siyavuş Novruzov, Zahid Oruc, Elman Məmmədov, Əli Hüseynli

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**1. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**2. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müda-**

**fiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**4. "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Siyavuş Novruzov, Elman Məmmədov, Rüfət Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Tahir Kərimli, Valeh Ələsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**7. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Fərəc Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**8. "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Valeh Ələsgərov, Fərəc Quliyev, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**9. "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Azər Kərimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**10. "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**11. "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil**

**daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**12. "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**13. Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi**

**barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

**14. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**15. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Fərəc Quliyev, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**16. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 82 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

**17. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**18. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**20. Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**21. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**22. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verlmədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**23. "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**24. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ağalar Vəliyev, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**25. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**26. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**27. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**28. Azərbaycan Respublikasının "Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

Təklif: Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**29. "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Vahid Əhmədov, İlham Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.33 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.38 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.38 dəq.) |
| Lehinə | 81 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.39 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**30. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, İsa Həbibbəyli, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, Zahid Oruc, Valeh Ələsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.43 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü bəndlər qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.09 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**31. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.11 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 80 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.12 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.13 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**32. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.16 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci bəndlər qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.17 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.17 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**33. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Jalə Əliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.22 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**34. “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Jalə Əliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.23 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–2-ci bəndlər qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.24 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.25 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**35. "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Jalə Əliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.27 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.28 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.28 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**36. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.31 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.31 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**37. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.32 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–2-ci bəndlər qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməmdi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.34 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisi Sədrinin**
**birinci müavini** **Z.ƏSGƏROV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*12 oktyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir olsun, hörmətli həmkarlar, hörmətli deputatlar! Xahiş edirəm, qeydiyyatdan keçək. Xahiş edirəm, səsvermədə bir az diqqətli olun.

| **Qeydiyyat** | (saat 12.05 dəq.) |
|---|---|
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Yetərsay var, çox sağ olun.

Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Gündəliyin müzakirəsinə ehtiyac varmı? Bəlkə kimsə nə isə demək istəyir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Var? Onda xahiş edirəm, yazılın. Xahiş edirəm, yenidən yazılaq. Buyurun, kim çıxış etmək istəyirsə yazılsın. Çıxış etmək istəməyən, əlbəttə, yazılmasın. Yoxdur. Onda gündəliyin müzakirəsinə başlayırıq. Sevinc xanım, buyurun.

**S.Hüseynova.** Çox sağ olun, Ziyafət müəllim! Bu günlərdə Azərbaycan ictimaiyyəti arasında ciddi müzakirələrə səbəb olan bir hadisəyə münasibət bildirmək istərdim.

Hazırda Azərbaycan–Rusiya münasibətləri ən yüksək səviyyədədir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin son dövrlər bu istiqamətdə gördükləri işlər ikitərəfli münasibətləri daha da dərinləşdirmişdir.

Hazırda parlamentlərarası münasibətlərimiz də inkişaf etməkdədir. Amma təəssüf edirik ki, oktyabrın 7-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisinə qanunsuz səfər edən bir qrup rusiyalı qadın nümayəndələr arasında Rusiya Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsi sədrinin birinci müavini Svetlana Jurova da olmuşdur. Qanunsuz səfər “Qadınlar sülh naminə” adı altında keçirilmişdir. Amma bütün dünya ictimaiyyəti bilir ki, Dağlıq Qarabağda müharibəni Ermənistan və Dağlıq Qarabağın erməni separatçıları başlamışlar. Yəqin Svetlana Jurovaya məlum deyil ki, təkcə Xocalı soyqırımı zamanı ermənilər tərəfindən 106 qadın və 63 uşaq qətlə yetirilmişdir. Qarabağ müharibəsi zamanı erməni separatçıları tərəfindən öldürülmüş insanlar arasında təkcə azərbaycanlılar deyil, rus millətinin nümayəndələri də

olmuşlar. Onlardan 4-nün, Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyovun, İqor Makeyevin, Yevgeni Karlovun, Viktor Seryoginin adlarını çəkmək kifayət edər. Bu cür hərəkətlərlə erməni terrorçuları onlarca rus anasını da gözüyaşlı qoymuşlar.

Svetlana Jurovanın bu aksiyaya qoşulması Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçi ölkə kimi mövqeyi və rolu haqqında Azərbaycan ictimaiyyətində xoşagəlməz təsəvvür yarada bilər. Rusiya qadınlarının bu qrupunun problemin tək hüquqi deyil, həm də əxlaqi komponentini anlamadan könüllü və ya könülsüz bu aksiyaya qoşulmaları təəssüf hissi doğurur. Mən Azərbaycan–Rusiya dostluq qrupunun üzvü kimi Rusiyadan olan həmkarlarıma müraciət edərək onları bu cür qanunsuz səfərlərdən çəkinməyə çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sevinc xanım. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli sədrlik edən. Hörmətli deputatlar, icazə verin, fürsətdən istifadə edərək, bizim komitənin sədri Əli Hüseynlini 50 yaşının tamam olması münasibəti ilə ürəkdən təbrik edim. Bəlkə də mənim çıxış edə biləcəyimdən xəbəri yox idi. Mən istəyirəm, bu təbrikə hamı qoşulsun.

Mənə Əli müəllimlə hələ 1992-ci ildə Ali Məhkəmədə bir yerdə işləmək qismət olub. O, alicənab, gözəl insan, savadlı hüquqşünasdır. Açıq deyim, mən yaşlı adamam, bilirsiniz ki, təriflə nə isə umacağım yoxdur. Mən Əli Hüseynlinin və onun kimilərin simasında Azərbaycan dövlətçiliyinin görkəmli şəxsiyyətlərini görürəm. Xüsusən son 3 il ərzində onunla işləməkdən o qədər məmnun olmuşam ki! Arxayınam ki, sabah biz öləndə, ölkədən gedəndə bu ölkəni idarə edən kişilər olacaq, hüquqşünaslar olacaq,

savadlı insanlar olacaq. Dövlətimizə, parlamentimizə, xalqımıza sadiq, hər şeyi bilən, ürəyi təmiz, xalq üçün yanan, keçmişimizi də bilən insanlar.

Mən çox məmnunam və icazə verin, bir daha öz adımdan, yoldaşlarımın adından, hamımızın adından Əli müəllimi təbrik edək, uzun ömür, can sağlığı, müvəffəqiyyətlər arzulayaq. İnanıram ki, onu dövlət rəhbərimiz də çox istəyir, parlament rəhbərliyi də çox istəyir. Biz hamımız da çox istəyirik. Bir daha uğurlar arzulayıram. Təbrik edirəm! *(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun. Əli müəllim, Sizi təbrik edirik, Sizə möhkəm can sağlığı, işlərinizdə uğurlar arzulayırıq! Fərəc Quliyev.

**F.Quliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Mən Rusiyadan Dağlıq Qarabağa gəlmiş nümayəndə heyəti haqqında geniş danışmaq istəmirəm. Sevinc xanım bu məsələyə toxundu deyə, təkrarçılığa yol vermədən Sevinc xanımın mükəmməl fikirlərini dəstəkləyirəm. Hesab edirəm ki, həm dostluq qrupunun özünün bir sənəd hazırlayıb göndərməsi, həm də parlament adından Rusiya Dövlət Dumasına müraciət hazırlamağımız vacibdir.

Ümumiyyətlə, bu məsələlərə ciddi baxmaq lazımdır. Susqunluq nümayiş etdirdikcə, belə fəsadlar ortaya çıxır. Vasitəçi dövlətin belə davranışı, təbii ki, doğru deyil. Mən bir daha bildirmək istəyirəm ki, Sevinc xanım məsələyə geniş toxunduğu üçün təkrarçılığa yol vermək istəmirəm, onun fikirlərini dəstəkləyirəm.

İkinci məsələ ilə bağlı. Bu yaxınlarda Gürcüstanda yaşayan soydaşlarımızın nümayəndələri Bakıda mətbuat konfransı keçirdilər. Bundan əvvəl də bizə müəyyən müraciətlər olub. Orada təhsillə bağlı ciddi narahatlıqlar yaranıbdır. İndi artıq Gürcüstandakı azərbaycandilli mək-

təblərdə şagirdlərin sayı 50 faiz azalıbdır. Müəllimlərə gəlincə, təsəvvür edin ki, onların 82 faizi artıq pensiya yaşına çatmışdır və bir müddətdən sonra orada müəllim, demək olar, qalmayacaq.

Parlamentdə dəfələrlə bu məsələyə toxunmuşam və xahiş etmişəm ki, bəlkə biz qəbul zamanı ancaq Gürcüstandakı soydaşlarımız üçün 100–200 yer ayıraq. Tələbələri özləri seçib buraya göndərsinlər və onlar dövlət hesabına təhsil alsınlar. Amma bir şərtlə, mütləq Gürcüstana qayıtmaq şərti ilə. Biz indi bu məsələyə baxmasaq, günün birində Qərbi Azərbaycanda yaşadığımız problemləri təkrar yaşaya bilərik. O insanların təhsil dalınca Gürcüstandan başqa yerlərə getməsi orada məktəblərin bağlanmasına gətirib çıxara bilər. Hesab edirəm ki, bununla bağlı məsələnin gündəliyə salınaraq Milli Məclisin, yaxud komitələrin müzakirəsinə çıxarılması çox zəruridir. Müvafiq icra strukturlarının, o cümlədən Təhsil Nazirliyinin nümayəndələrinin də həmin iclasda iştirakı məqsədəuyğun olardı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Gövhər Baxşəliyeva.

**G.Baxşəliyeva.** Çox sağ olun, Ziyafət müəllim. Məni narahat edən bir məsələ haqqında danışmaq istərdim. Bu günlərdə həm mətbuatda, həm də təhsil nazirinin müavini tərəfindən bu fikir səsləndirildi. Rus sektoruna verilən uşaqların sayı, burada təhsilə meyil artır. Mən düşünürəm ki, bu, kökündən səhv meyildir. Biz vaxtında bunun qarşısını almalıyıq. Bu, heç də mənim rus dilinə qarşı çıxmağım kimi anlaşılmamalıdır. Rus dili böyük bir xalqın dilidir. Böyük mədəniyyətə, böyük tarixə malik, bizimlə sıx əlaqələri olan bir xalqın dilidir. Rusiya bizim strateji tərəfdaşımızdır, dost dövlətdir. Amma bu dil ingilis dili və digər xarici dillər kimi tədris olunmalıdır. Heç

kim tədris proqramında bu dilə ayrılan saatların artmasının əleyhinə olmamalıdır. Amma hesab edirəm ki, azərbaycanlı uşaqların elə birinci sinifdən rus sektoruna verilməsi kökündən yanlış bir meyildir və biz bunun qarşısını vaxtında almalıyıq.

Necə olur, Arazın o tayında 35 milyonluq xalq ana dilində təhsil uğrunda böyük bir savaş verir, mücadilə aparır, məhrumiyyətlərə məruz qalır, cəzalandırılır, biz isə burada anadilli təhsildən könüllü şəkildə imtina edirik? Mən düşünürəm ki, bu düzgün deyil. Ziyalılar istənilən azərbaycanlının ilkin təhsilinin mütləq ana dilində olması istiqamətdə iş görməli, təbliğat aparmalıdırlar. Çünki o elə bir yaş dövrüdür ki, uşaq artıq şəxsiyyət kimi, müəyyən mentalitetin daşıyıcısı kimi formalaşır. Onun gələcəyi, Azərbaycan vətəndaşı kimi yetişməsi üçün bu çox vacibdir.

Sual oluna bilər ki, sovetlər dönəmində bir çox insan rus dilində təhsil alıb. Bəli, o vaxt buna müəyyən bəraət qazandıran amillər var idi. Çünki ölkə müstəqil deyildi, sovetlərin paytaxtında və digər böyük şəhərlərdə təhsil almaq üçün rus dili lazım idi. Karyera qurmaq, yüksək elmi dərəcələr qazanmaq üçün rus dili lazım idi. Amma bu gün biz müstəqilik və ölkəmizdə bütün şərait, həm karyera üçün...

**Sədrlik edən.** Elman Nəsirov.

**E.Nəsirov.** Hörmətli həmkarlar, hörmətli media mənsubları! Məlum olduğu kimi, Ermənistan paytaxtında artıq 2 gündür ki, Beynəlxalq Frankofoniya Təşkilatının sammiti keçirilir. Bu sammit çərçivəsində baş verən bir neçə hadisəyə diqqətinizi çəkmək istəyirəm. Çünki bu proseslər nəticə etibarı ilə üzləşdiyimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa bağlıdır və bir çox hallarda münaqişənin tənzimlənməsi imkanlarını buxov-

layan gedişlərdir.

Əvvəla, qeyd edim ki, oktyabr ayının 9-da Ermənistanda, İrəvan şəhərində "Frankofoniya şəhərciyi" hazırlanıb və həmin şəhərcikdə, Ermənistan Respublikasının pavilyonunun nəzdində Dağlıq Qarabağ separatçı rejimi də fəaliyyət göstərir. Yəni, bu addımı birbaşa münaqişənin tənzimlənməsinə çox ciddi zərbə kimi dəyərləndirirəm. Hesab edirəm ki, belə bir addımın atılması, – bu tədbirdə həm də həmsədr dövlətin rəhbəri, Fransa Prezidenti iştirak edir, – nəticə etibarı ilə heç bir halda regionda sülhə və təhlükəsizliyə xidmət göstərmir. Eyni zamanda, o da bəlli oldu ki, bu günlərdə Fransanın Alfortvil və Valans şəhərlərinin merlərinin qondarma "Dağlıq Qarabağ respublikası"na səfərləri olub. Artıq Xarici İşlər Nazirliyi bununla bağlı öz mövqeyini açıqlayıb. Bu, bütün hallarda qəbuledilməz bir hadisədir, ən azı ona görə ki, Fransanın yerli özünüidarə orqanlarının beynəlxalq meydanda davranışı məlum prinsiplərlə ziddiyyət təşkil edir. Eyni zamanda, belə bir addım o zaman atılır ki, münaqişənin tənzimlənməsi ilə bağlı yeni səylər göstərilməlidir. Bu məqsədlə Düşənbədə Azərbaycanın və Ermənistanın dövlət başçıları arasında yüksək səviyyəli müəyyən müzakirələr keçirilmişdir. Mövcud vəziyyətdə Fransa kimi həmsədr dövlətin 2 şəhərinin merinin bu addımı qəbuledilməzdir.

Nəhayət, diqqətinizi üçüncü məsələyə cəlb etmək istəyirəm. Bu, Ermənistanın baş naziri Paşinyanın Frankofoniya tədbirinin elə açılış günündə dediyi fikirlərlə bağlıdır. O, yenə də öz ampluasında qalaraq, Frankofoniya sammitinin açılışında qeyd edib ki, Dağlıq Qarabağ həlledici səslə danışıqlarda iştirak etməlidir. Hətta o, yenidən "Dağlıq Qarabağ xalqı" ifadəsini dilə gətirib. Sanki Düşənbədə heç bir razılaşma əldə edilməyib.

Belə yanaşmalar, təbii ki, münaqişənin həlli imkanlarını çox güclü şəkildə buxovlayır. Bütün bunlarla bağlı biz öz mövqeyimizi bildirir, belə yanaşmaları qəbuledilməz hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim! Ziyafət müəllim, icazə olsaydı, mən elə Mirkazım müəllimin vaxtı hesabına da danışardım. Ona görə nəzərə almağınızı xahiş edirəm.

Mən də həmkarlarıma qoşulub partiyamızın üzvü, fəalı Əli müəllimi təbrik edirəm, ona uğurlar arzulayıram. Parlamentdə uzunmüddətli, çoxşaxəli fəaliyyəti münasibəti ilə, həmçinin yubileyi münasibəti ilə təbrik edirik, cansağlığı arzulayırıq.

Hörmətli Ziyafət müəllim, bu gün mən xüsusi bir məsələyə toxunmaq istəyirəm. Bu, xarici siyasətlə bağlı məsələdir. Biz bu məsələdə çox həssas olmalıyıq. Ümummilli liderimiz Azərbaycanda yenidən hakimiyyətə gələndən sonra, demək olar ki, bütün qonşularımızla, o cümlədən böyük dövlətlərlə, Avropa strukturları ilə, ayrı-ayrı təşkilatlarla dağılmış münasibətləri bərpa etdi, yenidən qurdu. Bu gün də bu balanslaşdırılmış siyasət çox uğurla davam etdirilir.

Təbii ki, bizi istəməyən qüvvələr hər vasitə ilə aranı qatmaq istəyirlər. Bu gün görürsünüz ki, Gürcüstanda keçirilən prezident seçkiləri ilə əlaqədar müxtəlif bəyanatlar səslənir. Orada erməni barmağının olduğu açıq görünür. Yaxud bu gün ermənilər tərəfindən maraqlandırılan ayrı-ayrı Rusiya deputatları Rusiya dövlətinin, xalqının deyil, öz mövqelərini, öz maraqlarını ortaya qoyur, Azərbaycana qarşı qərəzli fikirlər səsləndirirlər. Bir ara İranda da bir neçə nəfər ortaya düşüb Azərbaycana

qarşı ara qarışdırmaqla məşğul idilər. Artıq bütün bu məsələlər tənzimlənib. Biz də, istər həmkarlarımız, istərsə də digər siyasətçilər bu gün Azərbaycanın bir neçə ciddi probleminin – Dağlıq Qarabağın və digər ərazilərimizin işğal altında olması, böyük dövlətlərin buradakı maraqları, Azərbaycanın təbii sərvətlərindən güzəştli şəkildə istifadə etmək istəyənlərin mövcudluğu və sair problemlərin – olduğu vəziyyətdə hər sözümüzü ölçüb-biçməliyik. Çünki bulanıq suda balıq tutmaq üçün istənilən şəxsin fikrindən və rəyindən istifadə edib onu bizə qarşı çevirməyə hazır olanlar var.

Bu ilin bir neçə ayı ərzində bir neçə xarici dövlətin, aparıcı Avropa dövlətlərinin, qonşu və dost dövlətlərin rəhbərləri Azərbaycana səfər ediblər. İkitərəfli müqavilələr bağlanıb, ölkəmizdə biznes-forumlar, humanitar forumlar keçirilibdir, münasibətlər daha da yaxşılaşıbdır. İstər Rusiya, istər Türkiyə, istərsə də Almaniya ilə olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin. 1 dəqiqəyə yekunlaşdırın.

**S.Novruzov**. Bu yaxınlarda Fransa Prezidentinin Azərbaycana səfəri gözlənilir.

Cənab Prezidentin hər bir səfərində xalqın maraqları, dövlətin maraqları ifadə olunur, ortaya qoyulur. Biz də hər addımımızda çalışmalıyıq ki, bu münasibətlərə hər hansı xələl gəlməsin və bundan hansısa jurnalist, hansısa erməni pərəst siyasətçi Azərbaycana qarşı ab-hava, əhval-ruhiyyə yaratmaq üçün istifadə etməsin. Bu baxımdan indi həssas bir dövrdür, həssas zamandır. Mən hesab edirəm ki, burada oturanların hamısı vətənini, xalqını sevən insanlardır. Şəxsi fikirlər də ola bilər, amma bununla yanaşı, bir qədər diqqətli olmalıyıq ki, öz əməli fəaliyyətimizlə Pre-

zidentin apardığı xarici siyasət fəaliyyətinə hər hansı xələl gətirməyək. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Birincisi, burada qadınların Qarabağda keçirmək istədikləri sülh konfransı ilə bağlı məsələyə toxunuldu. Mən də bu məsələyə münasibətimi bildirmək istəyirəm. Yaşı 40-dan yuxarı olan insanlarımız çox yaxşı xatırlayırlar, Ermənistanla Azərbaycan arasında bu müharibənin ocağı hələ alovlanmamış Azərbaycan qadını silahlı münaqişəyə girmək ərəfəsində olan bu xalqların qarşısında öz baş örpəyi ilə sədd çəkməyə çalışmışdı və bununla da sülhə töhfə verdiyini göstərmişdi. Lakin yazıqlar olsun ki, biz son 30 ildə Ermənistanda nəinki Levon Ter-Petrosyanın, Köçəryanın, Sərkisyanın, yaxud indi Paşinyanın həyat yoldaşları, eləcə də erməni qadınları tərəfindən sülhə töhfə verildiyini görməmişik. Əksinə, onlar sülh mövzusunu istismar eləyiblər, sümürüblər, onun çətiri altında müharibəni təşviq eləyiblər. Nəylə təşviq eləyiblər? Erməni qadınları sülhü istəməməklə, öz balalarını Azərbaycan insanını öldürməyə təşviq etməklə, bu ruhda böyütməklə, tərbiyə etməklə bunu ediblər. Təhsil sistemində işləyən, müəllim olan erməni qadınları öz övladlarına Azərbaycan xalqını düşmən kimi göstərməklə bunu ediblər. Övladları öləndə isə onu qəhrəmanlaşdırıblar və qəbirlərinin üstündə qəhrəmanlara ağlayan kimi ağlayıblar.

Bu illər ərzində görmüşük ki, Ermənistan Prezidenti Aparatının qarşısında keçirilən aksiyalarda bir ovuc erməni anası ağlayır, etiraz eləyir, amma bu bütövlükdə erməni xalqının hərəkatına çevrilməyib. Əksinə, müharibəni, dediyimiz kimi, nifaqı dərinləşdirən qadınları da bu gün öyməkdədirlər. Silva Kaputikyanın, Bonner-Əlixan-

yanın adlarını çəkmək kifayətdir. Ona görə Azərbaycan cəmiyyətindən buna baxış ondan ibarətdir ki, bu boyda Şəhidlər Xiyabanından sonra Azərbaycan anası həmin saxta çağırışlara dəstək verə bilməz. Çünki belə çağırış var idi ki, guya övladlarını itirmiş analar bir-birilərini yaxşı başa düşürlər. Bu, sülh mövzusunu, bir daha deyirəm, müharibə marağı, qarşıdakı seçki marağı üçün istismar etməkdir.

Erməni qadını sülh istəmir, əgər o, sülh istəyirsə, bir konfransla deyil, köklü şəkildə, bütövlükdə Azərbaycana münasibətini dəyişməlidir, Ermənistan hakimiyyətinin girovluğundan çıxmağı bacarmalıdır. Ermənistan hakimiyyətinin əleyhinə, "bu müharibəyə son qoyun, çünki bu bizim balalarımızı məhv edir, Qarabağ bütövlükdə onlar üçün qəbiristanlığa çevrilib" deməyi bacarmalıdırlar.

Mənim vaxtım qalmır. Mən Almaniya Bundestaqının qərarını, Amerika təmsilçisinin Azərbaycana səfəri zamanı Qarabağla bağlı bu günlərdə səsləndirdiyi mövqeyini təqdir edirəm. Bunları Avropanın, Qərbin münaqişə ilə bağlı ədalətli mövqeyinin güclənməsi üçün yaxşı addımlar sayıram. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Elman Məmmədov.

**E.Məmmədov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Mən də burada səslənən fikirlərə münasibət bildirmək istəyirəm. Paşinyanın arvadıdır, nəyidirsə, o, bir dəstə özü kimi, öz ağlında, öz əqidəsində olanları başına yığıb, bizim işğal olunmuş ərazilərə gətirib. Təbii ki, bu gələn adamlar hara gəldiklərini bilməli idilər. Hara gəliblər, haradadırlar və bu ərazi hansı dövlətə məxsusdur. Mənə elə gəlir, ola bilər, onların bəziləri bunu bilməyib, ancaq əksəriyyəti bilərəkdən gəliblər. Bu məsələlər barəsində hörmətli Siyavuş müəllim çıxışında dedi, biz dövlətlərarası

münasibətlərə onların səviyyəsindən baxmamalıyıq. Bunlar dəvət olunublar, gəliblər,  kimdirlər, nəçidirlər, dedim. Ancaq bir məsələ var, biz həmişə gözləyirik ki, düşmən tərəf, qarşı tərəf nə isə etsin, biz onun ardınca gedək, özümüzü müdafiə etmək üçün nə isə bir kampaniya aparaq. Biz də bunu edə bilərik. Yəni, mən hesab edirəm ki, biz də çox yüksək səviyyəli insanları, qadınları, yaxud kim olur-olsun, dəvət eləyib işğal zonalarına apara bilərik və aparmalıyıq da. Dünən bu məsələ ilə bağlı Dağlıq Qarabağın azərbaycanlı icması ilə geniş tədbir keçirdik. Millət vəkili hörmətli Məlahət xanım da o tədbirdə iştirak edirdi. Dağlıq Qarabağın azərbaycanlı icması adından bəyanat qəbul olundu.

Bunu təhlükəli məqam kimi qabartmağa da, məncə,  o qədər də ehtiyac yoxdur. Anna çağırıb, bir dəstə qadını yanına salıb gətirib, gəzdirib, aparıb. Bunun qarşılığında biz ondan daha sanballı tədbirlər görməliyik və o gələnlərə, gəlmək istəyənlərə izah eləməliyik ki, bunlar uşaq qatilləridir, qadın qatilləridir, bunlar sülhün tərəfdarları deyil, əleyhdarlarıdır, bunlar işğalçıdır, soyqırımı törədənlərdir. Bunların tarixini, törətdikləri əməlləri geniş izah eləməklə, təbliğat işi aparmaqla bu məsələlərin qarşısını almaq mümkündür. Hələ ki bəyanat verməklə, etiraz eləməklə kifayətlənirik. Hələ ki gücümüz buna çatır. Sonrasını Allah bilər.

Bir məsələyə də toxunmaq istəyirəm. İşğaldan danışdıq. Torpaqlarımız işğal altındadır. Bu gün çox tarixi bir gündür. Bu gün Azərbaycan xalqının tarixinə ağır gün kimi, qara səhifə kimi yazılmış bir gündür. Bu gün Gülüstan müqaviləsinin imzalandığı, Azərbaycanın parçalandığı, Azərbaycan ərazilərinin işğal olunduğu bir gündür. Çox təəssüf ki...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir dəqiqə vaxt verin.

**E.Məmmədov.** Yəni çox təəssüf ki, 200 ildən artıq müddət keçməsinə baxmayaraq, 1813-cü ilin bu günündə imzalanmış həmin müqavilənin nəticəsində Ermənistan dövləti bu gün də var. Bu gün də o işğal davam edir. Buna nə vaxt son qoyulacağını cənab Prezidentimiz dəqiq deyir və göstərir ki, biz işğala son qoymaq üçün güclü olmalıyıq, bir olmalıyıq. Siyasətimiz düzgün siyasətdir, gördüyümüz bütün işlər bizi qələbəyə aparır. İnşallah, qələbə günümüzü qeyd edəcəyik.

**Sədrlik edən**. Sağ olun. Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Mən ilk növbədə dövlətimizin başçısı cənab Prezidentə, parlament rəhbərliyinə, həmkarlarım, sizlərə təbrikə görə, diqqətə görə təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlar, Sevinc xanımın, Elman müəllimin qaldırdığı məsələ ilə bağlı eyni münasibəti bölüşürəm. Fərəc müəllimin müraciətinə cavab olaraq demək istəyirəm ki, dostluq qrupunun üzvləri olaraq biz Rusiya parlamentinin sədri cənab Volodinə, eləcə də, parlament komitələrinə Sizin burada səsləndirdiyiniz fikirlərdə olan kəskin arqumentlərin əks etdirildiyi müraciəti artıq hazırlamışıq. Bu müraciət həm mənim tərəfimdən, həm də Rus İcmasının rəhbəri cənab Zabelin tərəfindən imzalanacaqdır.

Əlbəttə, bəlkə bu qədər ciddi reaksiya verməzdik, amma məsələ bundadır ki, Dövlət Dumasının təmsilçisi həm Xarici əlaqələr komitəsi sədrinin birinci müavini, həm də hakim partiyanın üzvüdür. Məhz buna görə biz həmçinin fraksiyanın rəhbərliyinə müraciət etmişik və əmin ola bilərsiniz ki, bu məsələ diqqətdə saxlanacaq.

Ümumiyyətlə, müraciətimizdə qeyd etmişik ki, parla-

ment rəhbərliyi gərək Dövlət Dumasının bütün üzvlərini hansısa prosedur qaydasında xəbərdar etsin ki, Azərbaycan Respublikasının işğal altındakı ərazilərinə qanunsuz səfər etmək beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. İşğal olunmuş ərazilərə qanunsuz gedənlər bunu bəzən hansısa ictimai aksiya adı altında da edir və deyirlər ki, bu bizim siyasi fəaliyyətimizlə bağlı deyil. Onlara izah etmək lazımdır ki, siyasi xadimlərin hətta şəxsi fəaliyyəti, ictimai fəaliyyəti belə siyasi yük, siyasi məna daşıyır və onlar bundan çəkinməlidirlər. Çünki bununla bizim ölkələrimizin münasibətlərinə zərər vura bilərlər.

Bununla yanaşı, mən hörmətli həmkarımız Gövhər xanımın qaldırdığı məsələyə münasibət bildirmək istəyirəm. Gövhər xanım, əgər Azərbaycan əhalisinin müəyyən bir hissəsi, seçicilərimiz, vətəndaşlarımız seçim edib övladlarını rus sektoruna yönəldirlərsə, biz vətəndaş seçiminə hörmətlə yanaşmalıyıq. Mən hesab edirəm ki, Sizin bu fikriniz vətəndaş cəmiyyətinin fikrini özündə ehtiva etmir, çünki bu, vətəndaşların seçimidir.

Azərbaycanda dövlət dili Azərbaycan dilidir. Son dövrdə cənab Prezidentin müxtəlif fərman və sərəncamları əsasında dövlət dilinin tətbiqi ilə bağlı bir çox işlər görülmüşdür. Ümumiyyətlə, bu gün Azərbaycan dilinin inkişafı ilə bağlı heç bir problem yoxdur və hesab edirəm ki, biz dillə bağlı məsələlərdən hansısa siyasi fikirlər üçün istifadə etməməliyik. Bu gün dil həm də iqtisadi məna daşıyır. Rus dili də, ingilis dili də. Biz ona çalışmalıyıq ki, bizim insanlar, vətəndaşlar, gənclər bir neçə dil bilsinlər. Bu bizim üstünlüyümüzdür və bu baxımdan, hesab edirəm ki, biz vətəndaşların seçiminə, – rus dili, ingilis dili, sabah çin dili olsun, fərqi yoxdur, – hörmətlə yanaşmalıyıq. Dövlət də bu baxımdan konstitusion müddəalara uyğun olaraq

bütün işləri görür. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim, təşəkkür edirəm. Hörmətli deputatlar, əgər başqa çıxış etmək istəyən yoxdursa, biz gündəlikdə duran məsələlərin müzakirəsinə keçirik. Gündəliyin birinci məsələsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədədir. İkinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Bilirsiniz ki, biz "Normativ hüquqi aktlar haqqında" Qanunun müvafiq maddəsinə keçən il bir düzəliş etdik. İndiki düzəliş o dəfə təqdim etdiyim düzəlişdir. Bu, normativ hüquqi aktların adları ilə bağlı bir sıra məsələləri tənzimləyir. Məqsəd ondan ibarətdir ki, belə aktların hazırlanması daha səmərəli, daha sürətli olsun və burada bir istisna nəzərdə tutulur: "ad və ya rəqəm dəyişiklikləri istisna olmaqla". Birinci oxunuşda müzakirə edildi, xüsusi təkliflər olmadı. İndi ikinci oxunuşdur və hörmətli həmkarlardan Konstitusiya qanunu olduğunu nəzərə alaraq, səsvermədə diqqətli olmalarını xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun, Əli müəllim. Hörmətli deputatlar, qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl nizamnamənin tələbinə görə biz qanun layihəsini əsas kimi qəbul eləməliyik, ondan sonra müzakirəyə keçməliyik. Buyurun, xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Buyurun, qanun layihəsi barədə fikir söyləmək istəyən varmı? Biz bu qanun layihəsini artıq birinci oxunuşda qəbul etmişik və qanuna edilən dəyişikliklər kifayət qədər əsaslandırılıb, deputatlarımız fikirlərini söyləyiblər. İndi ikinci oxunuşda çıxış eləmək istəyən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

"Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Komitə sədri Ziyad Səmədzadə, buyurun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Gündəlikdə olan bu 3 məsələ – "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Qanunda, "Sahibkarlıq sahəsində apa-

rılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda, "Rəsmi statistika haqqında" Qanunda dəyişikliklər haqqında qanun layihələri cənab Prezidentin bir məktubu ilə daxil olmuşdur. Ona görə icazə versəniz, üçünü də bir yerdə təqdim edərdim.

Birinci qanunda nəzərdə tutulan dəyişiklik "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 2017-ci il 29 dekabr tarixli Qanunun tətbiqi məqsədini daşıyır. Həmin qanuna əsasən sahibkarlıq subyektlərinin bölgüsünün yeni meyarları müəyyən edilmişdir. Həmin meyarlara görə sahibkarlıq subyektləri mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə bölünür. Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları artıq hökumət tərəfindən təsdiqə təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, sahibkarlıq subyektlərinin bölgüsü onlara yönəldilən dövlət dəstəyinin və güzəştlərin diferensiallaşmasına imkan yaradacaqdır. Qeyd olunanlara əsasən "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi yeni redaksiyada verilir:

"Bu Qanunun məqsədləri üçün kiçik sahibkarlıq subyektləri dedikdə "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiq edilən meyarlar əsasında müəyyən olunmuş kiçik və mikro sahibkarlıq subyektləri başa düşülür". Yəni "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Qanunda nəzərdə tutulan güzəşt və imtiyazlardan həm kiçik, həm də mikro sahibkarlıq subyektləri istifadə edəcəklər.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanuna təklif olunan dəyişikliklər mikro sahibkarlıq subyektlərinin yoxlanması ilə bağlı məsələləri də tənzim-

ləyir. “Rəsmi statistika haqqında” Qanuna təklif olunan dəyişikliklər statistikanın aparılması zamanı “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunun bu tələblərinin nəzərə alınması ilə bağlıdır. Belə ki, sahibkarlıq fəaliyyəti ilə bağlı statistik məlumatlar emal edilərkən sahibkarlıq subyektlərinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilmiş bölgüsü nəzərə alınmalıdır. Biz bu barədə Milli Məclisdə müvafiq qanun qəbul etmişdik. Xahiş edərdim, millət vəkilləri bu qanun layihələrinə öz münasibətlərini bildirsinlər.

**Sədrlik edən**. Qanun layihələri ilə bağlı çıxış eləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, ikinci məsələyə, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Qanunda edilən dəyişikliklərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti məsələ Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim! Hörmətli həmkarlar, biz keçən il cənab Prezidentin müvafiq sərəncamından sonra cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı bir sıra qanunvericilik tədbirləri gördük. Bunların bir hissəsi Cinayət Prosessual Məcəlləsinə etdiyimiz dəyişikliklər oldu. Azərbaycanda, eyni zamanda, ev dustaqlığı və girov qanunvericilikdə müstəqil qətimkan tədbiri formasında öz əksini tapıb və tətbiq olunma mexanizmi də

yaradılıb. Eyni zamanda, vaxtından əvvəl şərti azad olunma ilə bağlı məhkumun müraciətləri bəzən rədd olunurdu, onlara yenidən baxılması mexanizmində boşluq var idi. Hazırda Cəzaların İcrası Məcəlləsinə təqdim olunan dəyişiklik, əslində, uyğunlaşdırma xarakteri daşıyır. Cinayət Prosessual Məcəlləsində, prosessual qanunvericilikdə, mən qeyd etdim, ev dustaqlığı, girov, eləcə də vaxtından əvvəl şərti azad olunma tədbirləri öz əksini tapdı. Həmin müddəaların icra olunması üçün bütün o dəyişikliklər ayrıca bir məcəllə olan Cəzaların İcrası Məcəlləsində də öz əksini tapmalıdır. Beləliklə, indi təqdim olunan layihə uyğunlaşdırma xarakterlidir və hesab edirəm ki, tam yerində olmaqla, cəzaların humanistləşdirilməsi ilə bağlı həyata keçirdiyimiz siyasətin qanunvericilik sahəsində davamıdır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, qanun layihəsinin müzakirəsinə keçirik. Siyavuş Novruzov, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən də bu qanun layihəsinə səs verəcəyəm. Doğrudan da, bu, vacib məsələlərdən biridir. Ümumiyyətlə, cəza sisteminin humanistləşdirilməsi mütərəqqi haldır. Yaxud məhkəmə hökmünün çıxarılmasına qədər insanların mütləq həbs qətimkanı deyil, əgər ictimaiyyət üçün, cəmiyyət üçün ciddi təhlükə yaratmırsa, aidiyyəti strukturların çağırışına mütəmadi gedirsə, həmin şəxslərin həbs olunması, yaxud barəsində başqa tədbirlərin görülməsinə, güman edirəm, ehtiyac yoxdur. Eyni zamanda, vətəndaşın istintaq işlərinin həyata keçirilməsinə öz töhfələrini verə bilməsi üçün daha çox imkan yaranır. Bu halda hətta elə faktlar ortaya çıxa bilər ki, sonra o faktlar əsasında vətəndaş bəraət ala bilər.

Ziyafət müəllim, mən bu gün cəmiyyətimizi düşün-

dürən çox mühüm bir məsələ barədə fikrimi bildirmək istəyirəm. Bu, mənzillərlə bağlı məsələdir. Bununla bağlı həmkarlarımızın hamısına çoxlu sayda, dəstə-dəstə, qrup-qrup müraciətlər daxil olur. Əslində, bunlar elə cəzalarla bağlıdır.

Mahiyyət nədən ibarətdir? Çoxmərtəbəli bina tikintisi ilə məşğul olan bir qrup şəxs bir mənzili 5 nəfərə, 6 nəfərə, 7 nəfərə satıb, vətəndaşların vəsaitini mənimsəyiblər. Belə hallar çoxdur. Hərəsi ilə bir müqavilə imzalayıb təqdim ediblər. Təbii ki, aldadılanlar hüquq mühafizə orqanlarına müraciət edir və hüquq mühafizə orqanları bu işlə məşğul olan şəxsi məsuliyyətə cəlb edir. Əksər hallarda məlum olur ki, şirkət binanı tikənin deyil, ümumiyyətlə, heç bir işin sahibi olmayan bir adamın adınadır. Bəzi hallarda məlum olur ki, bu insanın harada nəyin tikilməsindən, ümumiyyətlə, məlumatı yoxdur. Ola bilər ki, onu hansısa ad altında bu işə qoşublar. Bu məsələlərdə əksər hallarda güzəştlər əldə etmək üçün məcburi köçkünlərimizin adından sui-istifadə edirlər. İnsanları aldadan, onlardan vəsait toplayan, həmin vəsaitləri mənimsəyən qalır bir kənarda, günahsız bir insanı cəzalandırırlar. Çünki bütün sənədlərə bu qol çəkib, möhürü bu vurub, qeydiyyatdan bu keçib. Ona görə hesab edirəm ki, gələcəkdə belə halların qarşısını almaq üçün ilk növbədə hüquqi şəxs kimi qeydə alınan bu adamın bir daxma tikmək imkanının olub-olmadığına baxılmalıdır. Yaxud o, bu sahənin mütəxəssisidirmi, yoxsa deyil? Kiminsə adına tikinti firması və ya başqa firma yaradılırsa, bütün bunlar nəzərə alınmalıdır. Düzdür, bu hüquqdur, qadağa qoya bilməzsən, burada ölçü vahidi yoxdur. Adam deyir, mən tikirəm, mən istedadam.

Digər tərəfdən, tutaq ki, lap elə şirkət sahibinin özünü

tutdular. 50 adamın vəsaitini mənimsəmiş şəxsə 15 il cəza müəyyənləşdirdilər, gedib həbsdə yatdı. Hesablayırlar ki, bu şəxsin qazandığının filan faizi neçə ilə dəymiş ziyanın ödənilməsinə çata bilər. Müəllim illərlə yığdığı pulu verib, mənzil alıb. Həkim neçə il işləyib yığdığı pulla ev şəraitini yaxşılaşdırmaq üçün özünə mənzil alıb. Belə çıxır ki, bu şəxs 200 il yaşamalı, işləməlidir ki, gəlirindən bəlkə, heç olmasa, bir nəfərə dəymiş ziyanı ödəyə bilsin. Zərərçəkənlərsə yüzlərlədir. Ona görə də vətəndaşa qarşı xüsusilə belə aldatma yolu ilə törədilən cinayətlərlə bağlı biz cinayət məsələsində yüngülləşdirici hallar tətbiq edə bilmərik. Çünki onun yalnız vəsaiti deyil, ömrünün 20 ilini, 30 ilini oğurlayırlar. Aldadan tək o pulu, on illərlə toplanmış vəsaiti oğurlamır, həm də onun əməyini oğurlayır. Biz onu, sadəcə, hansısa məbləğlə qiymətləndirməməliyik. Bu insan əziyyət çəkir, hər gün hazırlaşır, auditoriyaya girir, dərs deyir. Bunun üçün öz elmi əməyin qoyur. Nəticədə dələduzun biri gəlib onun əməyinin bəhrəsini mənimsəyir. Zərərçəkənə də deyirlər, get, gözlə, yaxud bunun yolu məhkəmədir, məhkəməyə ver. Biz bu vəziyyətdən çıxış yolu tapmalıyıq. Hesab edirəm ki, vətəndaşlara dəymiş ziyanın ödənilməsi üçün, ümumiyyətlə, bütün hallarda belə adamların əmlakı tam müsadirə olunmalıdır, yaxud bunun hansı isə bir yolu tapılmalıdır. Təbii ki, elə işlə məşğul olan öz adında heç bir əmlak saxlamır.

Ümumiyyətlə, gələcəkdə Əli müəllimin sədri olduğu komitə bu məsələyə ciddi yanaşmalı, çıxış yolları müəyyənləşdirməlidirlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elman Məmmədov.

**E.Məmmədov.** Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım! Cəzaların yüngülləşdirilməsi, humanistləşdirilməsi, təbii ki, xalqımız, millətimiz tərəfindən al-

sqışlanan hallardır. Bu illər ərzində çoxsaylı əfv fərmanları da olubdur. Amnistiya haqqında qərarlar qəbul olunubdur. İnsanlar heç bir şeydən sığortalanmayıb, heç kim bilmir, sabah onun başına nə gələ bilər. İnsan həyatda yaşayır, bəzən hadisə olur, qəza törədir, həbs olunur, cəzasını çəkir. Amnistiyaya düşsə də, əfvə düşsə də, düşməsə də, cəzasını tam çəkir və azadlığa çıxır. Bax, həmin insan üçün əsl problem bundan sonra başlayır.

Hesab edirəm, belə desəm, səhv etmərəm ki, deputat yoldaşlarımızın çoxuna seçicilər, sakinlər tərəfindən bu cür müraciətlər daxil olur. Cəzasını çəkib, azad olmuş insan hara müraciət edirsə, sanki onun boynuna bir damğa vurur, – sən həbsdə olmusan, sən cinayət törətmisən, mən səni işə qəbul edə bilmərəm, – deyirlər. Yəni, bu, işəgötürənlər, müvafiq idarə, təşkilat rəhbərləri tərəfindən həm qanuna, həm də insanlığa qarşı hörmətsizlik, ədalətsizlikdir. Yadımdadır, biz cəzasını çəkib gələnlərin cəmiyyətə bərpa olunması ilə bağlı bir qanun da, deyəsən, qəbul etmişik. Bəs rəhbər işçilər, məmurlar buna niyə əməl etmirlər?

İndi yaxşı, cəzasını çəkib azadlığa çıxmış insan işsiz qalsın? Onda bu necə yaşamalıdır, təzədən cinayət törədib, yenidən həbsxanaya qayıtmalıdır? Bəyənmədiyimiz sovet dövlətinin bu məsələlərlə bağlı belə bir qaydası var idi, həbsdən çıxan insanlar yaşadığı ərazidə qeydiyyata, nəzarətə götürülürdü və onun qısa müddət ərzində işlə təmin olunması diqqətdə saxlanılırdı. Biz bu təcrübədən, mənə belə gəlir ki, istifadə etməliyik. Bu insanların cəmiyyətə qayıtması, bir daha həbsə düşməməsi üçün onlarla ciddi məşğul olmalıyıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev.

**R.Quliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Qeyd

etmək istəyirəm ki, Siyavuş müəllimin çıxışını mən tam dəstəkləyirəm. Burada bir məqamı da qeyd etmək istəyirəm. Bu tikilən evlərin eləsi var ki, müqavilədə bir ilə, iki ilə tikilib qurtaracağı qeyd olunub. Amma onlarla, bəlkə yüzlərlə insan şikayət edir ki, 10 il, 15 il keçibdir, ancaq evlər tikilib qurtarmır. Onlara isə, məhkəməyə müraciət edin, deyirlər. Məhkəmədə də bu işlər illər boyu gedir və tikinti təşkilatı heç bir məsuliyyət daşımır.

Mən Əli müəllimdən xahiş edərdim, əgər imkan varsa, bu məsələnin hansı formadasa həlli yolları tapılsın. İnsanlar 15, 20 il evin tikintisini gözləməsin. Evi, binanı tikən təşkilat məsuliyyət daşısın və tezliklə onu tikib qurtarsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, Cinayət Məcəlləsinə təklif olunan əlavə və dəyişikliklərin bir hissəsi kifayət qədər əhəmiyyətli olduğundan onun üzərində dayanmaq istəyirəm.

Dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər cinayət məsuliyyətinə səbəb olur və həmin maddənin digər hissələrinə baxsaq görərik ki, ağırlaşdırıcı hallarda kifayət qədər ciddi cəzadır, yəni 5 ilədək azadlıqdan məhrumetmə cəzasıdır.

Eyni zamanda, bilirsiniz ki, bizim qanunvericilikdə aviasiya təhlükəsizliyi qaydalarının pozulması ilə bağlı inzibati məsuliyyət də, bir sıra hallarda cinayət məsuliyyəti də mövcuddur. Amma uçuş vaxtı hava gəmisində olan şəxsə zor tətbiqetmə və belə zorun tətbiqi hava gəmisinin təhlükəsizliyinə təhdid yaradırsa, yəni bu, sadəcə, bir şəxsə qarşı yox, ümumiyyətlə, hava gəmisi üçün təhlükə yaradırsa, bax bu hallar üçün də çox ciddi cəzalar təklif olunur. Məncə, bu, tam yerindədir. Çünki söhbət bir fərddən yox, bütövlükdə sərnişinlərdən və hava gəmisinin özündən gedir. Cəza kimi nəticə olaraq 10 ildən 14 ilədək azadlıqdan məhrumetmə təklif olunur. Hesab edirəm, belə maddələrin cinayət qanunvericiliyində olması bu sahədə boşluğun aradan qaldırılmasına xidmət edəcək. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Cinayət Məcəlləsinin 219-2 maddəsinə əlavələri mən qəbul edirəm. Çünki həyat inkişaf edir, xüsusən dənizdə neft və qaz istismarı ilə bağlı hüquqi tənzimləmələrə ciddi ehtiyac var. Ona görə də stasionar platformalarda təhlükəsizlik məsələləri ilə bağlı bir neçə hissədən ibarət olan bu maddələri qəbul etməyimiz əhəmiyyətlidir və mən buna səs verəcəyəm.

Amma mümkünsə, diqqəti başqa məsələlərə də yönəltmək istərdim. Bu nədən ibarətdir? Birincisi, biz stasionar platforma deyəndə, hökmən onun dəniz dibinə bərkidilməsini nəzərdə tuturuq, amma bizim stasionar olmayan üzən platformalarımız da var. Belə platformalarda hansısa

təhlükələr olan zaman bunun da hüquqi tənzimlənməsini nəzərdə tuturam. Baxdım, bəlkə başqa bir maddə var, mən bilmirəm. Yəni bunu da nəzərdə tutmaq lazımdır.

Bu bir, ikincisi, bu maddədə yalnız iqtisadi, yəni təbii sərvətlərin mənimsənilməsi ilə bağlı düzəldilmiş platformalardan söhbət gedir. Amma dənizdə bizim balıq ovu ilə, təhlükəsizliklə və sair ilə bağlı stasionar, üzən platformalarımız da var. Onların da eyni təhlükəsizlik məsələləri aktuallaşır. Yəni, dənizin dibinə bərkidilmiş stasionar qurğularla birlikdə dənizin dibinə bərkidilməyən platformaların, eyni zamanda, dəniz dibinə birləşdirilmiş, lakin təbii sərvətlərin mənimsənilməsi ilə bağlı olmayan qurğuların təhlükəsizlik məsələlərinin hüquqi tənzimlənməsini də təklif edərdim. Heç olmasa, gələcəkdə nəzərə alınsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Valeh müəllim, buyurun.

**V.Ələsgərov.** Tahir müəllim, birincisi, üzən platforma olmur. Qazma qurğusu ola bilər, təmir qurğusu ola bilər. Bunlar hamısı üzən vasitələrdir və bunlara aid qanunvericiliyimiz var. Dənizdə üzən hər nə varsa, gəmi də, platforma da olsa, onların təhlükəsizlik məsələləri müvafiq qanunvericiliklə, qoşulduğumuz konvensiyalarla tənzimlənir. Eləcə də, onlara aid olan bütün digər məsələlər müvafiq qanunlarımızda əksini tapmışdır. Müvafiq konvensiyalara qoşulmuşuq və bu məsələlər qanunlarla, konvensiyalarla tənzimlənir. Əmin ola bilərsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Valeh müəllim. Əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, bilirsiniz ki, son dövrlər biz cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinə və terrorçuluğun maliyyələşdirilməsinə qarşı bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq, milli qanun qəbul etmişik. Eyni zamanda, qanunvericiliyimizi bu sahədə qəbul etdiyimiz xüsusi qanuna da uyğunlaşdırmışıq. Onu da qeyd etmək istəyirəm ki, həm beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində, həm də bu təcrübədən irəli gələrək bir sıra təkliflər meydana çıxıb. Hazırda təqdim olunan qanun layihəsi də Maliyyə Monitorinqi Xidmətinin səlahiyyətlərinin artırılması və daha səmərəli istifadəsi ilə bağlıdır.

İki məsələnin üzərində xüsusi dayanmaq istəyirdim. Birincisi, nəzarət orqanları ilə bağlı. Təklif olunur ki, nəzarət orqanları terrorçuluğun maliyyələşdirilməsi, cinayət yolu ilə çirkli pulların əldə olunması fəaliyyəti ilə bağlı riskləri ildə bir dəfə qiymətləndirir, müvafiq mexanizm yaradır və bu fəaliyyəti nəzarət yoxlamaları üçün müəyyən edilmiş risklərə uyğun olaraq həyata keçirir.

İkinci əhəmiyyətli məsələ isə ondan ibarətdir ki, mövcud qanunun müddəalarına görə maliyyə monitorinqi or-

qanı öz səlahiyyətləri çərçivəsində məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Yəni, onun səlahiyyətləri qanun ilə nəzərdə tutulan yoxlamaları, nəzarət funksiyasını həyata keçirmək və məlumatları müvafiq icra hakimiyyəti orqanına verməkdən ibarətdir. Müvafiq icra hakimiyyəti orqanı dedikdə, burada maliyyə orqanından söhbət gedir.

Amma belə hallar da olur ki, maliyyə monitorinqi orqanı təhlil nəticəsində digər cinayət əməllərini də müəyyən edir. Yəni, hansı isə bir yoxlamanı aparır, amma digər cinayət əməlləri də müəyyən olunur. Bax, belə halda maliyyə monitorinqi orqanı nə etməlidir? Əlbəttə ki, onu müvafiq hüquq mühafizə orqanlarına göndərməlidir. 17.5-ci maddə bu məsələni həll edir ki, belə hallarda maliyyə monitorinqi orqanı digər cinayət əməllərini, onun əlamətlərini müəyyən etdikdə həmin məlumatları istintaq aidiyyəti üzrə cinayət təqibini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına, yəni deyək ki, Daxili İşlər Nazirliyinə və ya prokurorluq orqanlarına göndərir. Məncə, bu çox əhəmiyyətlidir, çünki maliyyə monitorinqi orqanının səlahiyyətləri genişdir. O yoxlamalar zamanı digər hallar da meydana çıxa bilər və beləliklə, əslində, maliyyə monitorinqi orqanı ilə hüquq mühafizə orqanları arasında səmərəli əməkdaşlıq üçün bir hüquqi baza yaratmış oluruq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev.** Sağ olun, Ziyafət müəllim. Həqiqətən də, bu, çox əhəmiyyətli dəyişiklikdir və mən Əli müəllimin verdiyi arayışdan sonra bəzi məqamlara daha toxunmayacağam. Aydın olur ki, bununla cinayət yolu ilə vəsaitlərin əldə olunması, onların hətta başqasının adına gizlədilməsi yollarının tapılması və yaxud yayınma hallarının çərçivəsi

çox daraldılır. Bu, korrupsiyaya qarşı mübarizə ilə bağlı həm Azərbaycan ictimaiyyətində, həm də beynəlxalq aləmdə geniş rəğbət doğuracaq. Bu, Azərbaycanın korrupsiyaya qarşı apardığı mübarizədə qanunçuluq baxımından da əhəmiyyətlidir.

Biz büdcəni müzakirə edəcəyik, hesab edirəm ki, büdcə daxilolmalarında xüsusi bir qrafanın ayrılması vacibdir. Təklif edirəm, orada məhz cinayət yolu ilə, korrupsiya yolu ilə əldə olunmuş vəsaitlərin müsadirəsindən sonra onların büdcəyə daxil olmasını göstərən bir paraqraf olsun.

Çox böyük rəqəmlərlə ifadə olunan oğurlanmış dövlət vəsaitləri vardır. İstər müəyyən kreditlər şəklində verilmiş olsun, istərsə də son zamanlar korrupsiyaya qarşı mübarizədə müsadirə olunan vəsaitlər olsun. Bunların ayrıca qrafa şəklində büdcəyə daxil olması, yenə deyirəm, ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanar. Bu, həm də Azərbaycana qarşı müəyyən qərəzli mövqedən çıxış edən beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən də müsbət addım kimi nəzərə alınar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. “Xəzər dənizinin Azərbaycan sekto-

runda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında. Valeh müəllim, buyurun.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, Ziyafət müəllim. Adı çəkilən qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 26 sentyabr tarixli 1\729 saylı məktubu ilə Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. Təqdimata keçməmişdən öncə, icazənizlə, bu qanunun bəzi hissələrini sizə təqdim edim. Çünki Milli Məclisdə 34, ya da 35 dəfə bu cür qanunlar təqdim edilib və əksər hallarda eyni suallar səslənir. Bu sualların əksəriyyətinin cavabları qanun layihəsinin özündə var.

Qanun layihəsi. "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Saziş qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

İkinci, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən podratçı tərəflərə verilən Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

Sazişin əsas mətninə edilmiş 13 əlavə və SOCAR-ın Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma qəbul

edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

Bu qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr qanun olurlar. Sazişdə konkret surətdə başqa hallarla göstərilməyirsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir. Habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin və ya onların hüquq varislərinin Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin şərtlərinə və müddəalarına uyğun olaraq Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

Sizə təqdim olunan sənədlərdən göründüyü kimi, saziş 2018-ci il aprelin 26-da Azərbaycan Respublikası Prezidentinin Birləşmiş Krallığa səfəri zamanı Londonda imzalanmışdır. Sazişin tərəfləri dövləti təmsil edən qurum olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və digər tərəfdən podratçı qismində İngiltərədə qeydə alınmış BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR tərəfindən gələcəkdə yaradılacaq və onun tam nəzarətində olaraq bütünlüklə ona məxsus olacaq Ortaq Neft Şirkətidir.

Kontrakt sahəsi təxminən 3200 kvadrat-kilometrə yaxın bir ərazidir. Kontrakt sahəsində dənizin dərinliyi 110-750 metr arasında dəyişir. Kontrakt sahəsinin sahilə ən yaxın məsafəsi 65 kilometrdir. Sazişdə göstərildiyi kimi, podratçıların iştirak payı: BP EKSPLOREYŞN LİMİTED şirkətinin payı 50 faiz, Dövlət Neft Şirkətinin yaradacağı Ortaq Neft Şirkətinin hissəsi 50 faizdir. Hər zaman olduğu kimi, bu sazişdə də göstərilib ki, riskli müddətdə sazişin icrası ilə əlaqədar Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkətinin heç bir maliyyə iştirakı olmur. Riskli müddət, kəşfiyyat müddəti ərzində bütün maliyyələşdirməni xarici tərəfdaş təmin edir. Əgər gələcəkdə neft-qaz ehtiyatları kəşf, hasil ediləcəksə, onda bu maliyyənin əvəzi Ortaq Neft Şirkətinin payına düşən neft və qazın, karbohidrogenlərin satışından əldə edilən vəsaitlə ödəniləcəkdir.

Sazişin müddəti. İlkin kəşfiyyat, əsas kəşfiyyat, işlənmə və hasilat dövrünə 25 il müddət qoyulub. İlkin kəşfiyyat dövründə perspektiv sahə ilə əlaqədar seysmik tədqiqat işləri aparılacaqdır və onun nəticələri emal və təsnif ediləcəkdir. Bu müddət 24 ay davam edəcəkdir. Qüvvəyə minmə tarixindən etibarən ilkin kəşfiyyat dövrünün sonuna qədər kontrakt sahəsinə münasibətdə çəkilmiş neft

və qaz əməliyyatlarının məsrəfləri, bir də təkrar edirəm, yalnız BP şirkəti tərəfindən maliyyələşdirilir və həmin məsrəflərin əvəzi ödənilir.

İlkin kəşfiyyat dövrü ərzində podratçı tərəflər götürdükləri öhdəlikləri tam və vaxtında yerinə yetirmək şərti ilə SOCAR-a podratçının nöqteyi-nəzərindən karbohidrogen yatağının mövcudluğu potensialı olan sahə və ya sahələr haqqında məlumat verə və həmin perspektiv sahə və ya sahələr barəsində yazılı bildiriş təqdim edə bilər. Podratçı bundan sonra SOCAR-ın razılığı olan halda, əlavə kəşfiyyat işləri aparmaq üçün 3-ə qədər perspektiv sahə seçə bilər. Bundan sonra podratçı tərəflər əsas kəşfiyyat dövründə nəzərdə tutulan işləri görə bilərlər.

Əsas kəşfiyyat dövrü 3 il təşkil edir. Əsas kəşfiyyat dövründə podratçı hər bir perspektiv sahənin mühəndis, geoloji tədqiqatını aparmalı, ətraf mühitə təsiri qiymətləndirməli və ən azı hər bir perspektiv sahədə bir kəşfiyyat quyusu qazıb SOCAR-a lazım olan məlumatları təqdim etməlidir. Bu işlər görüldüyü halda podratçı kəşf və onun kommersiya dəyəri haqqında Dövlət Neft Şirkətinə yazılı bildiriş təqdim etməlidir və bundan sonra 6 ay ərzində müvafiq perspektiv sahə üzrə işlənmə proqramını SOCAR-ın təsdiqi üçün təqdim etməlidir. SOCAR işlənmə proqramını təsdiq etdikdən sonra həmin perspektiv sahə işlənmə sahəsi hesab olunur və podratçı tərəflər işlənmə və hasilat dövründə nəzərdə tutulmuş işlərin aparılmasına başlaya bilərlər. İşlənmə və hasilat dövrü, dediyim kimi, 25 il müddət ərzində davam edəcəkdir. Podratçı müvafiq işlənmə proqramının təsdiqindən sonra 48 aydan gec olmayaraq sənaye hasilatının başlanmasına nail olmaq üçün lazım olan bütün məqsədəmüvafiq addımları atmalı, işləri görməli və bu işlərin görülməsini öz öhdəsinə götürməli-

dir. Hər işlənmə və hasilat dövrü SOCAR tərəfindən təsdiq olunduğu təqdirdə, zəruri müddətə uzadıla bilər.

Neft-qaz əməliyyatlarının aparılması ilə əlaqədar iş yerləri. Sənaye hasilatının başlanması tarixinədək mühəndis-texniki işçilərin 70 faizi, fəhlə heyətinin 90 faizi, sənaye hasilatının başlanma tarixindən etibarən mühəndis-texniki işçilərin ən aşağısı 90, fəhlə heyətinin 95 faizi Azərbaycan Respublikasının vətəndaşları olmalıdır. Təcrübə göstərir ki, faktiki olaraq mühəndis-texniki işçilərin 90 faizindən, fəhlə heyətinin 95 faizindən çoxu Azərbaycan Respublikası vətəndaşı olur. Hər zaman olduğu kimi, podratçı tərəflərin Azərbaycan vətəndaşlarının hazırlanmasına cəlb edilməsi üçün onların peşə təlimi işlərini aparmaları şərti qoyulur. Sazişdə həmişəki kimi, o da göstərilib ki, bu məqsədlər üçün ildə 200 min dollardan az vəsait xərclənirsə, podratçı tərəflərə bu xərclər ödənilmir. Əgər podratçı tərəflər SOCAR-ın nəzarəti altında və təsdiq edilmiş proqramlar çərçivəsində 200 min dollardan artıq vəsait xərcləyibsə, onda bu xərclər ödənilən vəsaitlərin sırasına qatıla bilər.

Məsrəflərin əvəzi, ödənilməsi və mənfəət karbohidrogenləri. Kontrakt sahəsi riskli bir sahə olduğuna görə, indiyə kimi geniş təhlil olunmamış, kəşfiyyat işləri aparılmamış bir ərazidə olduğu üçün, podratçını bu riskə getməyə təhrik etmək üçün razılaşdırılıb ki, kontrakt sahəsində hasil edilən neftin həcmi 5 milyon tonu keçənə qədər mənfəətli neftin 70 faizinə qədər hissəsi podratçı tərəflərə ödəniləcəkdir. 10 milyon tonu keçənə qədər podratçı tərəflərə 60 faizi və ümumi hasilat 10 milyon tonu keçəndən sonra podratçı tərəflərə 50 faizi, SOCAR-a 50 faizi ödəniləcəkdir.

Hər zaman olduğu kimi, mənfəətli karbohidrogenlərin

bölgüsü R  əmsalı əsasında aparılır. R əmsalı 1.50-yə çatana qədər SOCAR-ın, dövləti təmsil edən qurumun mənfəətli karbohidrogenlərdə payı 55, podratçının payı 45 faiz olacaqdır. R əmsalı. Layihənin mənfəətliyi artdıqca, SOCAR-ın payı 55-dən 90 faizə qalxır, podratçıların payı 45 faizdən  10 faizə qədər azalır. Nəzərə alsaq ki, podratçı tərəflərin 50 faizi SOCAR-ın Ortaq Neft Şirkətinə məxsusdur, onda SOCAR-ın və SOCAR-ın Ortaq Neft Şirkətinin payına düşən mənfəətli karbohidrogenlərin R əmsalı 1,50-yə çatana qədər  77,5 faizi Azərbaycan tərəfin, 22,5 faizi xarici şirkətin payı olacaqdır. R əmsalı artarsa, mənfəətli karbohidrogenlərdə SOCAR-ın və onun Ortaq Neft Şirkətinin  payı 77,5 faizdən 95 faizə qədər artacaq, xarici şirkətin payı 22,5 faizdən 5 faizə qədər azalacaqdır.

Təbii səmt qazı. Bütün sazişlərdə olduğu kimi, bu kontraktda da göstərilib ki, texnoloji məqsədlər üçün istifadə edilməyən təbii səmt qazı  Dövlət Neft Şirkətinə, dövləti təmsil edən quruma çatdırılma məntəqəsində, yəni sahildə pulsuz-parasız çatdırılır. Əgər kəşfiyyat sahəsində sərbəst təbii qaz ehtiyatları kəşf olunarsa,  podratçı tərəflər bu kəşfin işlənilməsinə ancaq Dövlət Neft Şirkətinin həmin qaz yatağının işlənməsinə dair qərarından sonra başlaya bilərlər. Yəni, Dövlət Neft Şirkətinin razılığı olduğu halda başlaya bilərlər.

Təbii ki, Milli Məclisdə təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında başqa sazişlərdə  olduğu kimi, bu sazişdə də layihəni idarə edən  rəhbər komitənin yaradılması, tərkibi, səlahiyyətləri, səsvermə prosedurları, iş qaydaları öz əksini tapıbdır. Sizi yorub bunları bir-bir xırdalamaq istəmirəm. İş proqramlarının tərtib edilməsi, həyata keçirilməsi, icrası, icraya nəzarət sazişdə öz əksini tapıb. Xam neftin qiymətləndirilməsi maddə 13-də əksini tapıb-

dır. Sığorta, məsuliyyət, məsuliyyətin ödənilməsinin təminatları, fors-major halları, etibarlılıq, tətbiq edilən qanun, arbitraj, iqtisadi sabitləşmə, məxfilik və sair məsələlər xırdalığı ilə, incəliyi ilə sazişdə öz əksini tapıbdır. Standart mətnlər olduğuna görə, vaxtınızı almayım, sizi yormayım.

Sonda da əminəm ki, səs verib bu qanun layihəsini qəbul edəcəyik. Uğurlu olsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Valeh müəllim. Fərəc Quliyev.

**F.Quliyev.** Təşəkkür edirəm. Mən burada iki məsələyə aydınlıq gətirilməsini xahiş edirəm. Birinci, 23-cü maddə. 23.1-də belə bir müddəa var: “Bu Saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi olan hüquq prinsiplərinə müvafiq surətdə, hər hansı məsələyə dair ümumi prinsiplər olmadığı halda isə Kanadanın Alberta Əyalətinin ümumi hüquq prinsiplərinə müvafiq surətdə tənzimlənir və təfsir edilir”.

Niyə məhz Kanadanın, həm də bir əyalətinin qanunları tətbiq olunur və onunla tənzimlənir? Azərbaycan qanunlarına görə torpağın əcnəbi tərəfindən özəlləşdirilməsi, satın alınması mümkün deyil. Amma İngiltərə qanunlarında və bəzi beynəlxalq qanunlarda, ola bilər ki, Kanada qanunlarında torpağın satın alınması mümkündür. Sabah mübahisəli hal olanda əcnəbi vətəndaş torpağı, onun tərkibində mədəni ala bilər. Bu məsələyə istəyirəm, aydınlıq gətirilsin.

İkinci məsələ. Qanun layihəsində belə bir müddəa var: “Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar, Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının,

fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur".

Yəni, hüquqda sonradan qəbul olunan qanun əvvəlkindən üstün olmalıdır prinsipi var və normativ aktlarda bu, xüsusi olaraq, 10-cu maddədə göstərilib. Əvvəldən qəbul olunan qanun sonrakından aşağı, sonra qəbul olunan qanun əvvəlkindən üstün tutulur. Amma burada fərqli verilib, ya bu yanlışdır. Bu iki məsələyə aydınlıq gətirilməsini istəyirəm. Təşəkkür edirəm.

**V.Ələsgərov.** Fərəc müəllim, 37-ci dəfə cavab verirəm. Birincisi, əgər Azərbaycan Respublikasının mövcud qanunları ilə dəyəri 100 milyonlarla, milyardlarla olan riskli layihələrə xarici sərmayəçiləri cəlb etmək mümkün olardısa, yəqin ki, bunu edərdik. Növbəti dəfə misal gətirim. Əgər 10 perspektiv strukturun 2–3-də kommersiya dəyəri olan neft-qaz yataqları aşkar edilirsə, neft şirkəti üçün bu böyük bir uğur sayılır. Yəni, neft-qaz layihələri riskli layihələrdir. Hər zaman deyilən belə bir təsəvvür var ki, xaricilər harada neft olduğunu bilirlər, ona görə də neft-qaz olmayan yerə getmirlər. Mən də bu hallarda misal gətirirəm. Misal üçün, Lənkəran–Talış dəniz sahəsinə İtaliyanın "Eni" şirkətinin başçılıq etdiyi konsorsium 100 neçə milyon dollar pul qoydu, çıxdı getdi. Çünki kommersiya dəyərli ehtiyatları tapa bilmədilər. Başqa sahələrlə bağlı da bir-bir sadalaya bilərəm. Misal üçün, Amerika şirkəti Pirsaat sahəsinə gəldi, 4–5 il iş gördü, milyonlarla pul xərclədi, kommersiya dəyəri olan yataqları aşkar edə bilmədi deyə çıxıb getdi. Azərbaycan Respublikasının hökuməti, vətəndaşı xərclənən pulun bir qəpiyini də ödəmədi. Bonuslarını da aldıq, akrohesab ödənişlərini də aldıq, işçilərimiz maaşlarını da aldı və sair. Ona görə də bu riskləri nəzərə alaraq, Azərbaycan Respublikasının hökuməti bu yolla xarici şirkətləri cəlb edir.

Üstün? Əlbəttə ki, üstün. Mən gəlib bura milyardlarla xərc qoyum, bir ildən sonra dəvət edən hökumət hər hansı qanunlarını dəyişsin, qaydaları dəyişsin, mən onunla necə işləyim? Ona görə də qarantiya olmalıdır. Biz xarici investorların risklərini nə qədər aşağı salırıqsa, Azərbaycan Respublikasının gəlirləri, mənfəətləri o qədər üstün olur.

Əminliklə sizə deyirəm, Azəri–Çıraq–Günəşli yatağından Azərbaycan Respublikasının dövlət olaraq bir qəpik qoymadan, bir riskə getmədən əldə etdiyi mənfəət 130 milyard dollara yaxın oldu. Dünya tarixində belə şey yoxdur. Nəyin səbəbinədir? Xarici investorların riskinin minimuma, sıfıra endirilməsinin nəticəsində. 130 milyard dollar bir yataqdan, üstəgəl 50 milyard kub metrə yaxın səmt qazı pulsuz, parasız çatdırılıbdır. Üstəgəl, üstəgəl, hamısını cəmləsən, 150 milyarda gedib çatar. Nəyə görə? Sərmayə qoyan şirkətlərin risklərinin sıfıra endirilməsi səbəbinə. Bu risklərin sıfıra endirilməsi səbəblərindən biri də Siz qaldırdığınız məsələdir.

Niyə İngiltərə? Əgər Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində arada yaranan problemləri çözə bilmiriksə, onda İngiltərə. Niyə? Çünki banklardır, sığorta şirkətləridir və sair və sair, böyük şirkətlərdir. Tanıdığı, bildiyi, inandığı, əmin olduğu qanunvericilik sistemidir. Bu bir, ikincisi, niyə Kanada, Alberta? Çünki Kanadanın Alberta əyalətinin bu sahəyə aid olan qaydaları, normaları, tələbləri, standartları o qədər dəqiq, o qədər geniş işlənilibdir ki, onları təkrarən Azərbaycanda işləmək illərlə vaxt apara bilər. Ona görə də tək biz deyil, çox şirkətlər, çox ölkələr onlara müraciət edir. Deyir, əgər aramızda bir problem yaransa, bunu bu yolla, bu qanunvericiliyə uyğun, o şərtlərə, o standartlara uyğun həll edəcəyik. Burada qeyri-adi nə var ki? Əsas məqsəd ondan

ibarətdir ki, özümüz bilmədiyimiz işi kimə isə tapşıraq, öz paramızı xərcləmədən riskləri onun boynuna qoyaq. Qazanc olarsa, qazancın çox hissəsini biz götürəcəyik. Nə itiririk? Ancaq qazanırıq. 37-ci dəfə cavab verdim. Əminəm ki, razı qaldınız. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Valeh müəllim. Bəxtiyar Əliyev.

**B.Əliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Valeh müəllim birinci çıxışında bu məsələləri çox geniş, ətraflı aydınlaşdırdı. Valeh müəllim ikinci dəfə bir daha məsələyə aydınlıq gətirdi ki, bu cür sazişlər Milli Məclisdə dəfələrlə geniş müzakirə olunubdur və hər dəfə də qeyd edilibdir ki, burada Azərbaycan dövlətinin, Azərbaycan vətəndaşının mənafeləri tamamilə qorunur. Bu gün təsadüfi deyil ki, Azərbaycan artıq dünyada çox etibarlı bir tərəfdaş olduğunu göstərib. Bütün bu sazişlərdə həm beynəlxalq hüquq normalarına tam ciddi riayət olunur, həm də bu gün Azərbaycan iqtisadiyyatının yüksəlməsinə, Azərbaycanın inkişaf etməsinə imkan yaradır. Təkcə bir faktı göstərmək kifayətdir ki, bayaq Valeh müəllim qeyd etdiyi kimi, həmin şirkət azərbaycanlı fəhlələrin və mühəndislərin hazırlanması, ixtisaslarının artırılması ilə bağlı da əlavə tədbirlər görür, təlimlər keçir və həmin iş yerlərində çalışan azərbaycanlıların sayı 90–95 faizi ötür.

Bu illər ərzində görülmüş həmin tədbirlərin nəticəsində bu gün azərbaycanlı mütəxəssislər təkcə Azərbaycan neft sənayesində deyil, BP şirkəti və digərləri vasitəsi ilə bütün dünyada çalışırlar. Artıq yüzlərlə yüksək ixtisaslı azərbaycanlı mühəndis təkcə Azərbaycan adından deyil, dünyada məşhur olan həmin milyarder şirkətlərin menecerləri kimi ayrı-ayrı ölkələrdə idarəçiliklə məşğuldurlar. Bütün bunlar Azərbaycanın artan nüfuzunu göstərir. Bir daha onu göstərir ki, görün, nə qədər böyük risklər var, amma Azər-

baycan çox etibarlı tərəfdaş olduğuna və bu məsələlərə çox böyük diqqət ayırdığına görə, o böyük risklərə baxmayaraq, həmin şirkətlər Azərbaycanla əməkdaşlıq edir, Azərbaycana gəlir, bura investisiya qoyur. Bu, Azərbaycan dövlətinin inkişafına, çiçəklənməsinə xidmət edir və onun beynəlxalq nüfuzunun artmasına, beynəlxalq aləmdə özünə layiq çox güclü mövqe seçməsinə imkan verir. Bu baxımdan, hesab edirəm ki, bu cür sazişlər Azərbaycan üçün çox əlverişlidir və biz bunları qəbul etməli, buna səs verməliyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun, Bəxtiyar müəllim. Təklif var, səsə qoyulsun. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında qanun layihəsidir. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Azər Kərimli. Buyurun, Azər müəllim.

**A.Kərimli,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri də həm qonşu, həm qonşu olmayan dövlətlərlə ikitərəfli münasibətlərin yüksək səviyyədə qurulması

və inkişaf etdirilməsidir. Bildiyiniz kimi, yaxın vaxtlarda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsi və yeni, hərtərəfli əməkdaşlıq sazişinin imzalanması gözlənilir və yeri gəlmişkən, qeyd etmək istəyərdim ki, Azərbaycan bu gün artıq Avropa İttifaqına üzv olan 28 ölkədən 9-u ilə strateji əməkdaşlıq Sazişi imzalamışdır. Eyni zamanda, ölkəmiz Avropa Birliyinə üzv olub-olmamasından asılı olmayaraq, Avropa ölkələri ilə münasibətlərin inkişafına da önəmli yer verir.

Hörmətli həmkarlar, diqqətinizə təqdim olunmuş Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında qanun layihəsi hələ 2013-cü ilin fevral ayında Serbiya Prezidenti Tomislav Nikoliçin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamənin məntiqi davamı olaraq bu ilin may ayında Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri zamanı imzalanmışdır.

Diqqətinizi qanun layihəsinin preambulasında yer almış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müddəaya çəkmək istərdim. Burada Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə dəstəklənir və bildiyimiz kimi, Serbiyanın da ərazi bütövlüyü ilə bağlı problemi var. Bu, qismən tanınmış Kosovo Respublikasıdır və bilirik ki, artıq dünyada 100-dən artıq dövlət Kosovonu tanıyıb. Buna baxmayaraq, hətta Avropa Birliyinə daxil olan bir neçə dövlət – Sloveniya, Kipr, Yunanıstan kimi dövlətlər və Çin, Hindistan, Rusiya kimi dövlətlər bu günə kimi Kosovonu tanımayıblar. Azərbaycan da Koso-

vonu tanımayan dövlətlər sırasındadır. Təqdim olunmuş qanun layihəsində eləcə də Serbiya Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı dəstəklənir və vurğulanır.

Birgə Fəaliyyət Planında ikitərəfli münasibətlərimizin bütün sahələri, siyasi, iqtisadi, enerji, təhlükəsizlik, çoxtərəfli beynəlxalq əməkdaşlıq, həmçinin mədəniyyət və kənd təsərrüfatı sahələrində əməkdaşlıq nəzərdə tutulmuşdur. Əminik ki, bu sənəd ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsinə öz töhfəsini verəcək. Qanun layihəsinə səs verməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Təklif var, səsə qoyulsun. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsi. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Artıq hörmətli Azər Kərimli Azərbaycan–Serbiya münasibətlərinin strateji xarakter daşıdığı barədə kifayət qədər məlumat verdi. “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında

hava əlaqəsi haqqında" Saziş 2018-ci il mayın 21-də Bakıda imzalanmışdır. Saziş 23 maddədən və əlavədən ibarətdir. Bu Saziş Azərbaycan ilə Serbiya arasında hava əlaqələrinin qurulması üçün bağlanmışdır.

Sazişə əsasən tərəflərin aviasiya şirkətləri beynəlxalq hava əlaqəsini yerinə yetirərkən digər tərəfin ərazisi üzərindən uçmaq, qeyri-kommersiya məqsədləri ilə digər tərəfin ərazisində dayanmalar etmək, o cümlədən digər tərəfin ərazisindəki məntəqələrdən sərnişinləri, yükü və poçtu götürmək və ya boşaltmaq məqsədi ilə dayanmalar etmək hüquqlarından istifadə edirlər. Sazişə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən aviasiya orqanı qismində Dövlət Mülki Aviasiya Agentliyi çıxış edəcək.

Sazişdə aviasiya şirkətlərinin təyin edilməsi, hava limanından istifadəyə görə haqlar, gömrük rüsumları və vergilərdən azad edilmə, tariflər, uçuşların təhlükəsizliyi və aviasiya təhlükəsizliyi ilə bağlı maddələr öz əksini tapmışdır. Sazişdə dəyişikliklər edilməsi, onun ləğv edilməsi, qeydiyyata alınması, qüvvəyə minməsi, mübahisələrin həlli barədə maddələr də nəzərdə tutulub. Layihəyə müsbət münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi ilə əlaqədar qanun layihəsi. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, adı çəkilən Saziş 5 fəsil və 18 maddədən ibarətdir. Bu Saziş Azərbaycan ilə Serbiya arasında, o cümlədən onların ərazilərindən tranzit keçməklə beynəlxalq avtomobil daşımalarının inkişaf etdirilməsi üçün bağlanılmışdır. Saziş tərəflərdən birinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə digər tərəfin ərazisinə və ya onun ərazisindən tranzit keçməklə yerinə yetirilən beynəlxalq sərnişin və yük daşımalarını tənzimləyir.

Sazişdə yük daşımalarının, o cümlədən müntəzəm və qeyri-müntəzəm sərnişin daşımalarının təşkili qaydası da öz əksini tapıb. Tərəflərin ərazisinə və ya onların ərazisindən tranzit keçməklə üçüncü ölkələrə sərnişin və yük daşımaları qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən əvvəlcədən verilmiş icazə əsasında həyata keçirilir. Saziş, heç şübhəsiz ki, iki ölkə arasında nəqliyyat sahəsində əlaqələrin inkişafına, bütövlükdə iqtisadi inkişafa xidmət edəcəkdir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də münasibət bildirmələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, münasibət bildirək, zəhmət olmasa.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi. Buyurun, Eldar müəllim.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım! Bildiyiniz kimi, bitki karantini və mühafizəsi hər bir dövlətin daim diqqət mərkəzində və nəzarətindədir. Bununla əlaqədar bu ilin may ayında Serbiya ilə Azərbaycan arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Sazişi Azərbaycan tərəfindən Kənd Təsərrüfatı Nazirliyi imzalamışdır. Sazişin müddəalarının həyata keçirilməsi üçün Sazişin 3-cü bəndinə əsasən Serbiya tərəfindən səlahiyyətli orqan bu ölkənin Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Mühafizəsi Direktorluğu müəyyənləşdirilmişdir. Azərbaycan tərəfindən isə səlahiyyətli orqan sonra bildiriləcəkdir. Bu, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin bəzi nəzarət funksiyalarının yeni yaranmış Qida Təhlükəsizliyi Agentliyinə verilməsi ilə əlaqədardır. Bu proses tam yekunlaşdıqda məsələyə aydınlıq gətiriləcək və həmin orqan müəyyən edilərək sazişə əlavə ediləcəkdir.

Sazişin müddəalarının tətbiq dairəsi zərərvericilərin məskunlaşmasına və yayılmasına şərait yaradan bütün karantin nəzarətində olan obyekt və materiallardır. Tərəflər karantin nəzarətində olan materialların siyahılarını, mübadilə və beynəlxalq fitosanitar və ya təkrar ixrac

fitosanitar sertifikatını tələb edəcəklər. Sazişin 1 və 2 saylı əlavələrində karantin tətbiq edilən zərərli orqanizmlərin siyahıları verilmişdir və onlara gələcəkdə əlavə və dəyişikliklər oluna bilər.

Tərəflər milli qanunvericiliyə uyğun olaraq ərazilərinə idxal, ixrac və tranzit zamanı karantin tətbiq edilən zərərli orqanizmlərin girişinin qarşısının alınması üçün zəruri tədbirlər görməyi öhdələrinə götürürlər. Saziş tərəflərin tərəfdar çıxdığı digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir. Onun təfsiri və tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı danışıq və məsləhətləşmələr yolu ilə həll edilir. Qarşılıqlı razılığa əsasən müəyyən olunmuş qaydada sazişə əlavə və dəyişikliklər edilə bilər. Sazişdə onun qüvvəyə minməsi proseduru göstərilmişdir. Saziş bu növ dövlət sənədlərinin tərtib olunma tələblərinə tam cavab verir və onun təsdiq edilməsini hörmətli həmkarlarımdan xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Təklif var, səsə qoyulsun. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Sağ olun.

Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, adı çəkilən konvensiyaya təklif olunan dəyişikliklər Beynəlxalq Mülki Aviasiya Təşkilatının Şura üzvlərinin sayının 36-dan 40-dək, eyni zamanda, həmin təşkilatın naviqasiya komissiyası üzvlərinin sayının 19-dan 21-dək artırılmasından ibarətdir. Məqsəd Beynəlxalq Mülki Aviasiya Təşkilatının Şura və Komissiyasına üzv olan dövlətlərin daha geniş təmsilçiliyi hesabına daha yaxşı tarazlığın təmin edilməsindən ibarətdir. Yuxarıda qeyd edilən dəyişiklikləri nəzərə alaraq, millət vəkillərindən qanun layihəsinə münasibət bildirmələrini xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti məsələ "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

İcazənizlə, bu barədə mən məlumat verim. Hörmətli deputatlar, bildiyiniz kimi, 2016-cı il sentyabr referendumuna əsasən Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsində dəyişiklik edildi və 9-cu maddənin mətninə görə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının Ordusundan və digər silahlı birləşmələrdən ibarətdir. Bununla əlaqədar olaraq, möhtərəm cənab Prezidentdən qanun layihəsi daxil olub. Qa-

nun layihəsi iki əsas məqamdan ibarətdir.

Birinci əsas məqam ondan ibarətdir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibinə daxil olmayan, lakin müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi siyahıya əsasən müvafiq icra orqanlarının tərkibində struktur bölmələri var ki, onlarda da hərbi xidmət aparılır və orada çalışan insanlar zabitdirlər, hərbi qulluqçudurlar və onların statusu orduda xidmət edən insanların və digər silahlı birləşmələrdə xidmət edən insanların statusuna bərabər tutulmalıdır. Daha doğrusu, onlar da hərbi qulluqçu statusu almalıdırlar. Bu nöqteyi-nəzərdən, cənab Prezident təklif edir ki, onların da statusunu bərabərləşdirmək üçün belə bir dəyişiklik edilsin.

Yeri gəlmişkən, bizdə belə hərbi birləşmələr var. Məsələn, Hərbi Prokurorluqda, Fövqəladə Hallar Nazirliyinin tərkibində, eyni zamanda, Sərhəd Qoşunlarında var. Onlar, sözsüz ki, həmin nazirliyin, xidmətin, yaxud hərbi prokurorluğun struktur bölmələridir və bunlar da status baxımından bərabər tutulmalıdır.

Redaktə xarakterli digər bir məsələ ondan ibarətdir ki, burada, əgər fikir vermisinizsə, “16 yaş” “15 yaş”la əvəz edilir. Bu da nə ilə bağlıdır? Bilirsiniz ki, 15 yaşından bizdə şəxsiyyət vəsiqələri verilir və hər ilin yanvar–mart aylarında 15 yaşına çatmış kişi cinsindən olan hər bir Azərbaycan Respublikası vətəndaşı ilkin hərbi qeydiyyatdan keçməlidir. “16 yaş”ın “15 yaş”la əvəz olunmasının məqsədi bundan ibarətdir.

Dəyişikliklər, hesab edirəm ki, bizim digər qanunvericilik aktlarına və eyni zamanda, qəbul etdiyimiz referendumun aktının tələblərinə uyğun olaraq digər qanunvericilik aktlarına uyğunlaşdırma nöqteyi-nəzərindən olduqca vacib bir sənəddir və sizi bu qanun layihəsinə səs verməyə

dəvət edirəm. Çox sağ olun.

Bu məsələ ilə bağlı çıxış eləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti məsələ. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, Ziyafət müəllim! Ziyafət müəllim, 15–21-ci məsələlər bir məktubla daxil olub, mahiyyəti baxımından eynidir. İcazə versəniz, birlikdə məruzə edərdim.

**Sədrlik edən.** Buyurun.

**Ə.Hüseynli**. Təşəkkür edirəm. Hörmətli həmkarlar, biz cənab Prezidentin Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı müvafiq fərmanına uyğun olaraq qanunvericilikdə bir sıra düzəlişlər etmişik və təklif olunan dəyişikliklər də məhz həmin fərmanın ruhundan və qanunvericilikdə etdiyimiz dəyişikliklərdən irəli gəlir. Belə ki, ömürlük azadlıqdan məhrum etmə növündə cəzanın daha yüngül cəza ilə əvəz edilməsi və ya şərti olaraq vaxtından əvvəl azad edilmə barədə müraciət rədd edildikdə, ona azı bir ildən sonra təkrar baxılması ilə bağlı müddəanın Cəzaların İcrası Məcəlləsində öz əksini tapması təklif olunur.

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunda “zərərçəkmiş şəxs öldükdə və onun hüquqi varisi olmadıqda vəkil tərəfindən göstərilən hüquqi yardım məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla, dövlət büdcəsi vəsaiti hesabına təmin edilir” müddəası öz əksini tapır.

“Həbs yerlərində saxlanan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Qanunda “həbsdə saxlamanın son müddəti başa çatdıqda və ya bu müddət uzadılmadıqda həbsdə saxlama yerinin rəisi həbs edilmiş şəxsi dərhal azad edir” müddəası irəli çəkilir. Bu, qanunvericiliyimizdə artıq öz əksini tapıb. Çünki bir sıra hallarda müddət başa çatırdı, amma cəzanı icra edən orqan bununla bağlı xüsusi qərar gözləyirdi, deyək ki, məhkəmənin qərarını. Əslində həm beynəlxalq konvensiyaya görə, həm də qanunun özünün mənasına görə, əgər vaxt uzadılmayıbsa, həbsdə saxlanılan şəxs müddət başa çatan kimi dərhal azadlığa buraxılmalıdır.

Nəhayət, bilirsiniz ki, ev dustaqlığı və girov müstəqil qətimkan tədbiri kimi artıq qanunvericiliyimizdə mövcuddur və “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə”nin bununla uyğunlaşdırılması məqsədi ilə bu layihə təqdim olunur. Həmçinin “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Qanunda da ev dustaqlığı və girov müstəqil qətimkan tədbiri kimi müəyyən edildiyindən qanunvericiliyin uyğunlaşdırılması təklif olunur.

Bütövlükdə onu deyə bilərəm ki, əlbəttə, qanunlara edilən bütün bu dəyişikliklər cənab Prezidentin müvafiq fərmanından sonra bizim Cinayət Prosessual qanunvericiliyə etdiyimiz dəyişikliklərə uyğun olaraq sırf uyğunlaşdırma xarakteri daşıyır. Çox sağ olun.

**Sədrlik edən**. Qanun layihələrinin müzakirəsinə baş-

layırıq. Hörmətli deputatlar, onu da nəzərinizə çatdırmaq istəyirəm ki, 16 və 17-ci məsələlər birinci oxunuşda sizin müzakirənizə çıxarılır. Ona görə xahiş edirəm, nəzərə alasınız. Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Buyurun, Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm. Ziyafət müəllim, bu dəyişikliklərin hamısı, demək olar ki, mütərəqqidir, xüsusən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna edilən dəyişiklik. Buraya artıq yeni bir məsələ də salınır ki, "Ölmüş zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi"ni hakimiyyət öz üzərinə götürür.

Amma mən başqa məsələyə toxunmaq istəyirəm. 171.2-ci maddədə "Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun ərizəsinə əsasən onun cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi məhkəmə tərəfindən rədd edildikdə, təkrar ərizəyə məhkəmənin rədd haqqında qərarının qəbul edildiyi gündən ən azı bir il sonra baxıla bilər".

Buna aydınlıq gətirilməsi üçün sonra yazılır ki, dəyişikliklər penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə və cəza şəraitinin humanistləşdirilməsinə xidmət edir. Amma mövcud qanuna görə məhkumun müraciəti əgər məhkəmə tərəfindən rədd olunurdusa, 6 ay sonra müraciət edə bilirdi. İndi bir il sonra müraciət edir. Bu yüngülləşdirici yox, ağırlaşdırıcı hal oldu. Bu mənada, müddətin azaldılması doğru olar, yəni 3 aya endirilməsi. Məhkumun müraciəti rədd olundu, 3 ay sonra bir də müraciət etməyə imkanı olsun. Məqsəd humanistləşdirmədir. Amma ömürlük həbs cəzası alan adam bir də bir ildən sonra müraciət

edə bilərsə, bu doğru yanaşma deyil. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən 16-cı məsələ, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunla əlaqədar öz fikrimi bildirmək istəyirəm. Yerində olan dəyişiklikdir, çünki vəkillər tərəfindən hər bir vətəndaşımıza hüquqi yardım göstərilməsi vacib amillərdən biridir. Hətta sovet hökuməti dövründə kiminsə vəkili olmurdusa, bu halda məcburən vəkil təyin edirdilər. İnsanların hüquqları təmin olunsun deyə mütləq vəkili olmalı idi. Bu gün vəkillərin iştirakına çox böyük ehtiyac olan məsələlər var və Vəkillər Kollegiyası bu sahəyə daha çox insanın cəlb edilməsi ilə bağlı yeni mexanizm tətbiq edibdir. Düzdür, mən bunun bir az da sadələşdirilməsinin tərəfdarıyam. Kifayət qədər insanın vəkillik fəaliyyəti ilə məşğul olması üçün bu vacibdir. Söhbət təkcə cinayət məsuliyyəti ilə bağlı olan məsələlərdən getmir. O qədər mülki məsələlər, ailə-məişət məsələləri, torpaq məsələləri var ki. Hər bir şəxsdən bütün qanunları bilməyi tələb etmək olmaz. Kifayət qədər təcrübəli vəkillər olmalıdır ki, bu məsələləri tənzimləsin.

Bizdə insanlar adətən, vəkilə hansısa cinayət işi ilə bağlı istintaq, yaxud araşdırma prosesi dövründə müraciət edirlər. Halbuki, dünyada mülki işlər üzrə ixtisaslaşmış vəkillərin sayı cinayət işləri üzrə olanlardan beş dəfə artıqdır. Bu baxımdan, hesab edirəm ki, bazar iqtisadiyyatına keçilməsi ilə bağlı, iqtisadi və mülki xarakterli mübahisələrin artması nəzərə alınaraq, bu işlər üzrə vəkillərin sayı artırılmalıdır. Keçən dəfə hörmətli Əli müəllim də qeyd etdi, minə yaxın insan bu sertifikatı alıb. Hesab edirəm ki, bu azdır. Bizim bölgələrdə də bunlar öz fəaliyyətini qurmalıdırlar. Lazım olsa, bölgələrdə vəkillik fəaliyyəti üçün elə şərait yaradıl-

malıdır ki, onlar bölgələrə getsinlər, orada fəaliyyət göstərsinlər. Çünki bölgələr üzrə bizim həm iqtisad, həm apellyasiya məhkəmələrimiz fəaliyyət göstərir.

Bir xüsusi məsələyə də toxunmaq istəyirəm. Çox vacib məsələlərdən biridir. Vəkil kimlər ola bilər? Təbii ki, hörmətli Ziyafət müəllim, qanunda yazılıb, kimlər ola bilər, təhsili nədir, fəaliyyəti nədən ibarətdir. Amma mən istəyirəm, bu qanuna yenidən bir də baxılıb, işlənilsin. Səbəb nədir? Birdən görürsən ki, kimsə hüquq mühafizə orqanlarından, məhkəmə sistemindən, yaxud digər orqanlardan rüşvət üstündə, vəzifə səlahiyyətlərini aşmasına, yarıtmaz işinə görə xaric olunur və başlayır vəkillik fəaliyyəti ilə məşğul olmağa. Təbii ki, buna bir qadağa yoxdur. Bəli, belə insanlar var və qanunda həmin insanlar vəkillik fəaliyyəti ilə məşğul ola bilməz yazılmayıb. Bu insan 25 il şərəflə hüquq mühafizə orqanlarında dövlətə qulluq edir, təqaüdə çıxdıqdan sonra da bu insan yaşayır, fəaliyyət göstərir. Təhsilli, savadlı insandır, öz fəaliyyətini davam etdirmək istəyir. Bu qəbuldur. Amma elələri var ki, rüşvət üstündə və yarıtmaz fəaliyyətinə görə işdən qovulub. Belələrinin vəkillik fəaliyyəti ilə məşğul olması hüquqa uyğun gəlirmi? Qəti şəkildə uyğun gəlmir. Əgər bu özü rüşvət üstündə, yarıtmaz fəaliyyətinə görə işdən qovulubsa, digərinə hansı hüquqi yardım edə, köməklik göstərə bilər?

Ziyafət müəllim, mən bunu elə hüquq müdafiə təşkilatlarına da şamil eləmək istəyirəm. Görürsən ki, cinayət törətdiyinə görə işdən qovulan biri dərhal bir təşkilat yaradır, olur hüquq müdafiəçisi. Sən əməlinlə insanların hüquqlarını pozmusan, gəlib burada dərhal olursan hüquq müdafiəçisi. Mən başa düşürəm, elə insan var ki, ərizəsini yazar, deyər ki, mən bu idarənin işi ilə razı deyiləm, qəbul etmirəm, bu mənim xarakterimə, xasiyyətimə, dünya-

görüşümə, siyasi baxışıma ziddir, mən istefa verirəm və başqa sahə ilə məşğul olmaq istəyirəm. Getsin, məşğul olsun. Amma işdən qovulub, məsuliyyətə cəlb edilib, bu və ya digər dərəcədə cərimələnib, ictimai işlərə cəlb olunub, yaxud həbsxanada bir neçə il yatıb, sonra çıxıb özünü vəkil kimi və ya hüquq müdafiəçisi kimi cəmiyyətə təqdim edir, keçmiş fəaliyyətini ayrı-ayrı məsələlərlə ört-basdır eləmək istəyir. Hesab edirəm ki, belələrinə imkan verməklə biz Vəkillik İnstitutunun adına xələl gətirir, Vəkillik İnstitutunu korlayırıq. Çünki vəkil, digər bir şəxsin hüquqlarını müdafiə edən, bu hüquqların tam şəkildə həyata keçməsinə yardım edən bir insandır. Vəkil işi ilə, fəaliyyəti ilə, əməli ilə nümunə olmalıdır. Bəzilərinin anlayışında olduğu kimi, vəkil ara düzəldən funksiyası daşımamalıdır. Vəkil hüququ bilən, onu tətbiq edən və müdafiəsində dayandığı tərəfin hüquqlarını təmin etməyi bacaran şəxs olmalıdır. Ona görə də mən hesab edirəm, "Vəkillik haqqında" Qanunda, eləcə də "Qeyri-hökumət təşkilatları haqqında" Qanunda müvafiq dəyişikliklər olunmalıdır. Bu, yəqin ki, bizim komitəyə də aiddir.

Yoxsa, dünənə kimi insanların hüquqlarını pozanlar hüquq müdafiə təşkilatı yaradır və olurlar sədr. Qeyri-qanuni yollara əl atır, insanlara işgəncə verir, bu işlərin üstündə tutduğu vəzifədən azad olunandan sonra da olur hüquq müdafiəçisi. Belələrini qəti şəkildə bu sahələrə yaxın buraxmaq olmaz. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Hörmətli deputatlar, möhtərəm cənab Prezidentin bir məktubu ilə daxil olmuş bu məsələlər içərisində iki məsələ də var – "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun

layihələri. İcazənizlə, mən bu barədə məlumat verim. Qalan məsələləri nahardan sonra müzakirə edərik.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi, eyni zamanda, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə. Hər iki məsələ uyğunlaşdırma xarakteri daşıyır. Bilirsiniz ki, 2017-ci il fevral ayının 10-da möhtərəm cənab Prezidentin Penitensiar sistemdə fəaliyyətin təkmilləşdirilməsi və cəzanın humanistləşdirilməsi ilə bağlı böyük bir sərəncamı oldu. Eyni zamanda, 2017-ci il dekabrın 1-də Cinayət-Prosessual Məcəlləsində çox böyük dəyişikliklər edildi. Burada da təklif olunur ki, humanistləşdirmə prosesi davam etdirilsin, yəni söhbət hərbi qulluqçuları hərbi rütbələrdən məhrum etmə, hərbi rütbələrin aşağı salınması və bərpası ilə əlaqədar məsələlərdən gedir.

Hər iki qanun layihəsində bu məsələ cinayət qanunvericiliyinə uyğunlaşdırılır. Əvvəllər qüvvədə olan qanunvericiliyə görə bununla bağlı müvafiq icra hakimiyyəti orqanına məhkəmələr təqdimat göndərirdilər. Hazırda bu məsələ artıq birbaşa müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll ediləcək. Hesab edirəm ki, bu, doğrudan da, çox humanist bir məsələdir və sizi bu məsələnin qəbul olunmasına səs verməyə dəvət edirəm. Bu və ya digər məsələlərlə bağlı səs verməni isə, icazənizlə, biz nahardan sonra keçirərik. İndi isə nahardır, saat 2-dir. Sağ olun.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, nahara qədər biz sizinlə 15–22-ci məsələləri müzakirə etdik. İndi səsverməni keçiririk. Xahiş edirəm, səsvermədə diqqətli olaq. 15-ci məsələ səsə qoyulur.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 82 |
| Nəticə: Yetərsay yoxdur | |

Yetərsay yoxdur. Xahiş edirəm, səsvermədə diqqətli olaq. Bir də səs verək.

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.08 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Zəhmət olmasa, səs verək.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi. Xahiş edirəm, münasibət bildirək. Bu qanuna birinci oxunuşda səs veririk.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsi. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə qanun layihəsi. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım! Təqdim olunan qanun layihəsində "Torpaq bazarı haqqında" Qanunun 8-ci maddəsinə aşağıdakı məzmunda ikinci hissəsinin və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun 6-cı maddəsinə ikinci cümlənin əlavə edilməsi təklif edilir. "Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi "Torpaq icarəsi haqqında" Azərbaycan

Respublikası Qanununun 10-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir”. Eyni zamanda, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Qanunun 6-cı maddəsinin üçüncü cümləsinə “torpaq sahələrinin” sözlərindən sonra “istifadə” sözünün əlavə edilməsi təklif olunur.

Təqdim olunan qanun layihəsi “Torpaq icarəsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə bu il martın 31-də qəbul edilmiş qanunun tətbiqi məqsədi ilə hazırlanmışdır. Xatırlatmaq istəyirəm ki, “Torpaq icarəsi haqqında” Qanunun 10-1-ci maddəsində dövlət mülkiyyətində olan digər təyinatlı torpaqların icarəsindən fərqli olaraq kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsinin yeni qayda və şərtləri müəyyən edilmişdir. Həmin qaydalara və şərtlərə əsasən dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqları icarəyə götürmək istəyən şəxs bir quruma müraciət edir. Digər qurumla razılaşma şəxsin iştirakı olmadan, qısa müddətdə həyata keçirilir. Beləliklə, bürokratik əngəllər aradan qaldırılır. Hörmətli həmkarlarımdan qanun layihəsinə səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Hadi müəllim, əlavəniz varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir
Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Komitə sədrinin müavini Ağalar Vəliyev. Buyurun, Ağalar müəllim.

**A.Vəliyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə hazırlanmışdır.

Layihə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən baytarlıq, fitosanitar və qida təhlükəsizliyi sahəsində göstərilən xidmətlərə, hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumlarının 50 faizinin Agentliyin xəzinə hesabına köçürülməsini, qalan hissəsinin isə dövlət büdcəsinə ödənilməsini nəzərdə tutur. Bu vəsaitin bölgüsü və istifadə qaydası qanun qəbul olunduqdan sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdiriləcəkdir.

Yeri gəlmişkən, vurğulamaq istərdim ki, bu cür qanunlar bir çox qurumlarla bağlı qəbul olunmuş və həmin sahələrdə çalışan işçilərin sosial təminatının gücləndirilməsinə, onların fəaliyyətinin təkmilləşdirilməsinə və şəffaflığın artırılmasına münbit şərait yaratmışdır.

Dəyərli həmkarlarım, sizi "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan bu dəyişiklikləri birinci oxunuşda

dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ağalar müəllim. Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı? Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Mən, sadəcə, qanun layihəsini birinci oxunuşda müdafiə edərək, qeyd etmək istəyirəm ki, hörmətli Ağalar müəllim düzgün söylədi, bir neçə dövlət qurumunda biz bu addımları atmışıq. Amma bunun əsas səbəbi ondan ibarətdir ki, həmin dövlət qurumları cənab Prezidentin bu sahədə siyasətini tam, dürüst icra edə bilirlər. Son dövrdə Qida Təhlükəsizliyi Agentliyinin şəffaf fəaliyyəti göz qabağındadır və həqiqətən də, ASAN xidmətdə olan model faktiki olaraq Qida Təhlükəsizliyi Agentliyində də fəaliyyət göstərir. Bu baxımdan, hesab edirəm ki, tamamilə haqlı olaraq dövlət rüsumlarının 50 faizinin həmin qurumun sosial müdafiəsini gücləndirmək məqsədi ilə nəzərdə tutulması təqdirəlayiq haldır. Təbii ki, buna səs verəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Res-

publikası qanununun layihəsi, birinci oxunuş. Buyurun, Eldar müəllim.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. İcazə versəniz, "Baytarlıq haqqında", "Fitosanitar nəzarət haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlara dəyişikliklərin mahiyyəti eyni olduğundan onların hər üçünə təklif edilən dəyişiklik barədə deyərdim və sonra səsvermə olardı.

Hörmətli deputat həmkarlarım, təqdim olunan qanun layihələrində – "Baytarlıq haqqında" Qanunun 39.4-cü, "Fitosanitar nəzarəti haqqında" Qanunun 34.5-ci maddələrinə, "Yeyinti məhsulları haqqında" Qanunun 8-ci maddəsinin beşinci hissəsinə aşağıda göstərilən eyni məzmunlu mətnin əlavə edilməsi təklif olunur: "Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir".

Qanun layihələri müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi orqanın işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə hazırlanmışdır. Layihələr birinci oxunuşun tələblərinə cavab verir və onların lehinə səs vermək olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Buyurun, xahiş edirəm, “Baytarlıq haqqında” Qanuna edilən dəyişikliyə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Münasibət bildirək, zəhmət olmasa.

| **Səsvermənin nəticələri** | (saat 16.22 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının "Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. İkinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Ziyafət müəllim, qanun layihəsi birinci oxunuşda təqdim olunmuşdu və hansısa bir təklif daxil olmamışdı. Həm əsasnamə, həm də medalın təsviri bizim indiyə qədər mövcud olan qanunvericilik texnikasına və ənənələrinə tam uyğundur. Milli atributlar öz əksini tapmışdır. Millət vəkilləri səs verib qəbul etmişdi və ikinci oxunuşda da səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bizim Nizamnamənin tələbi belədir ki, ikinci oxunuşun qaydasına görə biz müzakirəyə keçməzdən əvvəl qanun layihəsini əsas kimi qəbul etməliyik. Ona görə, xahiş edirəm, əsas kimi səs verək, sonra müzakirəyə keçək.

| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Buyurun, xahiş edirəm, kim çıxış etmək istəyir? Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən hesab edirəm ki, bunlar çox vacib məsələlərdir və hər bir sahədə olduğu kimi, diplomatik xidmətə verilən töhfəyə görə medalın təsis olunması və bu sahədə fəaliyyət göstərən insanlara təqdim olunması yaxşı haldır. Bilirsiniz ki, bizim dünyada diaspor təşkilatlarımız var, onların fəalları cənab Prezident tərəfindən mütəmadi olaraq Azərbaycan dövlətinin orden və medalları ilə təltif olunur. O cümlədən Xarici İşlər Nazirliyi tərəfindən də bu cür insanların qiymətləndirilməsi, onlara bu medalların təqdim olunması təqdirəlayiqdir. Səs verib qəbul edə bilərik.

Ziyafət müəllim, mən bir başqa təklif irəli sürmək istəyirəm. Keçən dəfə burada çıxış etdim və çıxışımda həm parlamentin Sədri hörmətli Oqtay müəllimə, həm Sədr müavinlərinə, Milli Məclisin Aparatına, şöbə müdirlərinə, komitə sədrlərinə, deputatlara təşəkkürümüzü bildirdim ki, parlamentin 100 illiyi ilə bağlı tədbir çox yüksək səviyyədə keçirildi. Deyək ki, digər Cənubi Qafqaz dövlətlərində belə tədbirlərin necə keçirildiyini izləyəndə görürük ki, ən yüksək mərtəbədə duran Azərbaycanın keçirdiyi tədbirlərdir. Həm gələn qonaqların sayına, həm də onların təmsilçilik formasına və sair parametrlərə görə.

Ziyafət müəllim, hakimiyyətin 3 qolunun qanunverici, icra, məhkəmə hakimiyyəti olmasını Sizə deməyə ehtiyac yoxdur. Hüquqşünassınız, gözəl bilirsiniz. Mən təqdirəlayiq hesab edirəm ki, icra hakimiyyətinin bütün strukturları peşə bayramları, yubileylərlə əlaqədar özlərinin medallarını təsis edirlər və bir çox hallarda parlamentin bu sahədə göstərdiyi yardıma görə komitə sədrləri də, millət vəkilləri

də təltif olunurlar. Fürsətdən istifadə edib, hörmətli general-polkovnik, daxili işlər naziri Ramil müəllimə həmkarlarımızın bir çoxunun yubiley medalına təqdim olunmasına görə öz təşəkkürümü bildirirəm. Təbii ki, parlamentin özünün də təsis etdiyi medal var və bu, millət vəkillərinin hər birinə verildi. Lakin bu medalın gəzdirilməsi, yaxadan asılması, hansısa tədbirdə göstərilməsi mümkün deyil. Çünki tamam başqa, xatirə medalıdır. Amma xatirə medalı tamamilə fərqli olmalıdır. Əgər ayrı nümunə varsa, deyin, məlumatımız olsun. Yoxdursa, imkanımız var, bir də təsis edək, işləsinlər, hazırlasınlar. Həm parlament üzvlərinə, həm Milli Məclis Aparatında çalışan əməkdaşlarımıza, ayrı-ayrı dövlət strukturlarında, nazirlik, şirkət, komitə və sair parlamentlə əlbir işləyən, məsləhət bilinən insanlara təqdim olunsun. Çünki 100 illik yubiley hər dəfə olmur, bir dəfə 100 illik keçirilir. Biz hər birimiz parlamentin üzvüyük, burada 30 il, 20 il, 15 il, 10 il, ən azı 5 il parlament üzvü olan insanlar var. Niyə bu insanlara o medallar verilməsin? Niyə təqdim olunmasın?

MDB Parlamentlərarası Assambleyasının medalı var, təqdim edib, burada oturanların böyük əksəriyyəti alıb. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının var, digər parlament assambleyalarının var. Biz özümüz üçün təsis etmirik və hər bir təşkilatın bununla bağlı təklifini çox böyük məmnuniyyətlə qəbul və təsdiq edirik. Elə parlamentin yubiley medalını da təsdiq edək və bura gələn mötəbər qonaqlara da təqdim edək. İndiki də yaxşıdır. Müəyyən yerlərə, o cümlədən muzeyə qoymağa, gələcəkdə nəvələrə göstərməyə və sair üçün yaxşıdır. Amma tədbirdə bu xatirə medalını taxmaq, yaxud gəzdirmək tamamilə mümkün olmayan məsələdir. Niyə biz hakimiyyətin qollarından biri olan parlamentin

yubiley medalını təsis etməyək? Hesab edirəm ki, bu məsələ öz həllini tapmalıdır və deputat həmkarlarımdan da buna dəstək vermələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Başqa çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli deputatlar, qanun layihəsi həcmcə kiçik olsa da, biz onu bütövlükdə də səsə qoymalıyıq. Ona görə ki, ikinci oxunuşun tələbi belədir. Xahiş edirəm, zəhmət olmasa, bir də bütövlükdə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. “Azərbaycan Respublikası dövlət təh-

lükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş). Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi dövründə təhlükəsizlik orqanlarının da yubiley medalının təsis olunması təqdirəlayiqdir. Bilirsiniz ki, Xalq Cümhuriyyəti zamanında, məhz 1919-cu ildə ilk belə qurumlar yaradıldı.

Bununla yanaşı, onu da qeyd etmək istəyirəm ki, sovet hakimiyyəti illərində Azərbaycan təhlükəsizlik orqanları məhz ümummlilli lider Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə milliləşdi və xalqa, Azərbaycana xidmət etməyə başladı. Bu ənənələr uzun illər qorunub saxlanıldı. Onu da qeyd etmək yerinə düşər ki, son illər həm dövlət təhlükəsizliyi, həm də xarici kəşfiyyat xidməti Azərbaycanda terrorizmin qarşısının alınmasında, mütəşəkkil cinayətkarlığa qarşı, korrupsiyaya qarşı mübarizədə, bir sözlə, dövlət təhlükəsizliyinin təminatı məsələlərində kifayət qədər aktiv fəaliyyət göstərir, milli maraqların qorunmasına xidmət edirlər.

Belə bir yubiley medalının təsis olunması çox təqdirəlayiq haldır. Bu, həm dövlət təhlükəsizliyi, həm də xarici kəşfiyyat orqanlarının birgə medalıdır. Bu da təbiidir, çünki bu orqanlar qarşılıqlı, əlaqəli şəkildə fəaliyyət göstərir və vahid bir məqsədə xidmət edirlər. Medalın təsviri ilə bağlı birinci oxunuş zamanı da demişdim, bu, yenə də təhlükəsizlik orqanlarının və milli dövlətçilik atributlarını özündə ehtiva edir. İkinci oxunuşda səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldığı üçün, xahiş edirəm, əsas kimi qəbul edək, ondan sonra müzakirə edərik.

| **Səsvermənin nəticələri** | (saat 16.33 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Buyurun, Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, mən qanun layihəsinə səs verəcəyəm. Amma bayaq Siyavuş müəllim çox ciddi məsələyə toxundu, biz, əlbəttə, buna aydınlıq gətirməliyik. Söhbət Milli Məclisin üzvlərinə medal verməkdən getmir. Bizim kabinetimizə gətirib bir kağız qoyublar, bir dənə də yumru nə isə qoyublar ki, bu 100 illiklə əlaqədar medaldır. O medal deyil, o xatirə hədiyyəsi kimi bir şeydir.

Biz, Milli Məclisin üzvləri, bütün dövlət orqanlarının əməkdaşlarına Cümhuriyyətin 100 illiyi ilə əlaqədar xatirə medallarının verilməsini təsdiq edirik. Amma niyə biz Milli Məclisin üzvlərinin, – Siyavuş müəllim qeyd etdi, onların arasında 15 il, 20 il Milli Məclis üzvləri olan şəxslər, insanlar var, – əməyini lazımi səviyyədə qiymətləndirmək iqtidarına malik deyilik? Əgər, doğrudan da, bu belədirsə, bunun bir səbəbi olmalıdır. Bunun səbəbi nədən ibarətdir? Niyə Milli Məclis üzvləri, əziyyət çəkən, Azərbaycanda, ümumiyyətlə, müstəqillik dövründə qanunları

qəbul edən insanlar və sair 100 illik medalına layiq görülməsin?

Mən istəyirəm ki, bu məsələyə aydınlıq gətirək. Bəlkə, doğrudan da, Milli Məclisdə bu medalı verməyə layiqli insanlar yoxdur. Başqa orqanlarda var, amma o orqanların yubiley medallarını təsdiq edən Milli Məclisdə yoxdur. Ona görə mən xahiş edirəm, bu məsələyə aydınlıq gətirək. Çünki bu çox ciddi məsələdir. Onsuz da Milli Məclisin səlahiyyətlərini kifayət qədər əlindən almısınız, bir şey qalmayıb. İndi bir medal nədir ki, Cümhuriyyətin 100 illiyi ilə əlaqədar onu lazımi səviyyədə tərtib edib Milli Məclisin üzvlərinə vermək mümkün deyil?

Xahiş edirəm, bu məsələyə aydınlıq gətirilsin. Çünki bu, Milli Məclisin üzvlərinə baş ucalığı gətirmir. Bu, bizə, necə deyərlər, layiq olan bir hərəkət deyil. Biz özümüzə qiymət verməliyik. Belə olmaz axı.

**Sədrlik edən.** Sağ olun. Vahid müəllim, əvvəla, onu deyim ki, parlamentin 100 illiyi ilə bağlı xatirə medalları bütün deputat həmkarlarımıza verilibdir. O ki qaldı Milli Məclisin səlahiyyətinə, mən Sizinlə razı deyiləm ki, Milli Məclisin bütün səlahiyyətləri əlindən alınıb. Milli Məclisin kifayət qədər səlahiyyəti var və səlahiyyətindən də istifadə edir. Bizim Konstitusiyamız var, referendum keçirmişik, Milli Məclisin səlahiyyətləri də kifayət qədər orada təsbit olunub.

O ki qaldı Cümhuriyyətin 100 illiyi ilə bağlı, hər halda, bu məsələni müzakirə etmək olar. Amma mən hesab edirəm ki, məsləhət bilinsə, lazım bilinsə, yəqin ki, təltiflər olacaq. Buyurun, başqa çıxış etmək istəyən? İlham Əliyev, buyurun.

**İ.Əliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Əlbəttə, mən də razıyam ki, səlahiyyətimiz də var, hər bir şeyimiz

də var. Amma bir şeyi qeyd etmək istəyirəm ki, doğrudan da, bizə, bugünkü parlament üzvlərinə böyük bir xoşbəxtlik nəsib olub. Xoşbəxtlik ondan ibarətdir ki, parlamentimizin 100 illiyi bizim çağırışa düşüb. Mən hesab edirəm, hər bir parlament üzvü bunu özünə şərəf hesab edir ki, Azərbaycan parlamentinin 100 illiyi bizim çağırışa qismət olub. Mən də şadam ki, bu tədbirlərdə iştirak etmişəm. Çoxsaylı qonaqlar gəldi, parlament sədrləri, parlament üzvləri gəldi. Mən də həmkarlarımla, onların fikirləri ilə razıyam ki, əlbəttə, biz də öz yubiley medalımızı təsis etsək, çox gözəl olardı. Təşəkkür edirəm, minnətdaram.

**Sədrlik edən.** Sağ olun, İlham müəllim. Başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.38 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi rica edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.38 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |
| Nəticə: Yetərsay yoxdur | |

Yetərsay yoxdur, xahiş edirəm, səsvermədə diqqətli olaq, hörmətli həmkarlar. Xahiş edirəm, qanun layihəsinə bir də səs verin.

| **Səsvermənin nəticələri** | (saat 16.39 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Komitə sədri İsa Həbibbəyli.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli deputat həmkarlarım, birinci oxunuşda bu məsələ barədə ətraflı məlumat vermişdim. Deputat həmkarlarımın da reaksiyası olmuşdu. İndi qısaca onu demək istəyirəm ki, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İslam Əməkdaşlığı Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının qrantı hesabına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil almaları üçün sərəncam imzalayıb. Bu sərəncamda öz əksini tapmış müddəalar təhsil qanununun ali təhsilə aid olan 22-ci maddəsində öz əksini tapmalıdır. Sizə təqdim olunan layihədə həmin düzəliş 22.12-ci maddədə ifadə olunmuşdur. Bu zəruri əlavənin əhəmiyyəti ondan ibarətdir ki, bu, hər şeydən əvvəl, Azərbaycan Respublikasında

ali təhsilin yüksək inkişaf səviyyəsinə doğru getdiyinin bir göstəricisidir. Eyni zamanda, bu qədər xarici vətəndaşın gəlib Azərbaycanda ali təhsil alması bundan sonra da ali təhsil müəssisələrini istər-istəməz inkişafa səfərbər edəcək mühüm bir amildir. Bundan başqa, xarici ölkələrin vətəndaşlarının gəlib ali təhsil müəssisələrində doktorantura və ya digər pillədə təhsil almaları beynəlxalq müstəvidə ölkələrarası münasibətlərin inkişaf etməsinə öz sanballı töhfəsini verə biləcək amillərdən biridir.

Daha önəmli bir məsələyə də diqqəti cəlb etmək istəyirəm. Cənab Prezidentin bu sərəncamı əsasında Qoşulmama Hərəkatına və İslam Əməkdaşlığı Təşkilatına üzv olan ölkələrin vətəndaşlarına ölkəmizdə təhsil almaq üçün qrant verilməsi Azərbaycan Respublikasının qrant verən ölkəyə çevrilməsini bir daha möhkəmləndirir.

Bildiyiniz kimi, Elm Fondu da qrant vermək imkanlarına malikdir və bir neçə ildir, qrantlar verir. Bu il təsdiq olundu, Gənclər Fondu da qrantlar verir. Milli Elmlər Akademiyası bu il müsabiqə elan etdi, proqramlar üçün qrantlar ayırdı.

Ölkəmizin qrant alan ölkədən qrantlar verən ölkəyə çevrilməsi Azərbaycan Respublikasının inkişaf etməkdə olan ölkədən inkişaf etmiş ölkə səviyyəsinə doğru irəlilədiyini göstərən mühüm amillərdən biridir. Qrant verən ölkələr inkişaf etmiş ölkələrdir. Bu addım da bizim ölkəmizin məhz inkişaf etmiş ölkələrin sırasına daxil olmaq niyyətində, iqtidarında olduğunu göstərir. İnanıram ki, Ermənistan kimi ianələrlə yaşayan bir ölkə heç vaxt qrant verə bilməz. Ona görə də bu qanun layihəsi böyük əhəmiyyətə malikdir. Deputat həmkarlarımdan ikinci oxunuşda bu əlavəyə səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Üzr

istəyirəm, Qüdrət müəllim, biz qanun layihəsini əsas kimi qəbul edək, sonra çıxışlara keçəcəyik. Buyurun, xahiş edirəm, əsas kimi qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.43 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İndi isə müzakirəyə başlayırıq. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli deputat həmkarlarım, hörmətli media nümayəndələri! Keçən dəfə parlamentin iclasında bu məsələ müzakirə olunanda mən çıxış etdim, bunu təqdir etdim və söylədim ki, doğrudan da, müəyyən kvotalar ayrılmalıdır ki, həm cənubi azərbaycanlılar, həm də digər qonşu dövlətlərdə öz əzəli torpaqlarında yaşayan azərbaycanlılar gəlib həmin qrantlar hesabına Azərbaycan dilində təhsil ala bilsinlər. O cümlədən dünyanın başqa ölkələrində yaşayan azərbaycanlılar üçün də belə imkanın yaradılmasını təklif etdim. Bu gün günün birinci yarısında hörmətli Gövhər xanım söylədi ki, əlbəttə, azərbaycanlıların hər biri öz ana dilində təhsil almalıdır və hörmətli Əli müəllim də qeyd etdi, əgər kimsə istəyirsə, onun övladı tutaq ki, rus dilində təhsil alsın, dövlətin borcu, vəzifəsidir ki, onun bu dildə təhsil almasına kömək etsin.

Əlbəttə, mən keçən dəfə də Təhsil Nazirliyinin yeni

rusdilli məktəblərin açılması, rus dilinin daha dərindən öyrənilməsi ilə bağlı qərarını təqdir elədim. Hesab edirəm və o zaman da söylədim ki, əslində, Azərbaycanda ingilis dilinin öyrənilməsinə də çox böyük ehtiyac var. Bu artıq beynəlxalq dildir və bu dilin öyrənilməsi ilə bağlı xüsusi dövlət proqramının qəbul olunmasına ehtiyac var. Əli müəllim bayaq söyləmədi. Məsələn, Azərbaycanda çox insanlar ingilis dilində təhsil almaq istəyirlər. Azərbaycanda ingilis dilli özəl məktəblər var, amma qiymət həddindən artıq bahadır. Ona görə dövlət ingilis dilində də pulsuz məktəblərin açılması istiqamətində səy göstərsin.

Mən bunları söyləmişdim, niyə təkrarən çıxışa yazıldım, Ziyafət müəllim? Mətbuatda oxudum ki, Rusiya rəsmilərinin verdiyi açıqlamalara görə, Rusiya ilə Azərbaycan arasında əldə olunmuş razılığa əsasən Rusiya Azərbaycanda daha üç universitetinin filialını açacaq. İkisi var idi, bilirsiniz, Seçenov adına  Tibb Universitetinin və Lomonosov adına Dövlət Universitetinin filialları. İndi üçü də yeni açılır. Artıq Rusiyanın Azərbaycanda beş universiteti olacaq. Bunu da mən alqışlayıram. Ona görə ki, Rusiyada elmin səviyyəsi, etiraf edək ki, Azərbaycandan yüksəkdir. Ən azından Rusiyanın bir universiteti, Lomonosov adına Dövlət Universiteti dünyanın 300 nüfuzlu universitetinin sırasına düşə bilib. Təəssüf ki, bizdə hələ belə bir universitet yoxdur. Amma mən düşünürəm ki, biz dünyanın, heç olmasa, 300 demirəm, birinci 200-lüyünə daxil olan nüfuzlu universitetlərinin də Azərbaycanda filiallarının açılması istiqamətində səylər göstərməliyik. Azərbaycan hökuməti bu istiqamətdə müəyyən addımlar atmalıdır. Ona görə ki, bu auditoriyada, yenə deyirəm, məncə, şərh eləməyə də ehtiyac yoxdur ki, hər bir xalqın taleyində elmin, təhsilin rolu nə qədər böyük və əhəmiyyətlidir.

Bundan başqa, Ziyafət müəllim, yeri gəlmişkən, bir məsələyə də münasibət bildirim. Mən çox istərdim ki, xaricdə təhsil alan tələbələrlə bağlı Milli Məclisin rəhbərliyi tərəfindən də məsələ qaldırılsın. Çoxlu sayda azərbaycanlı gənclər nüfuzlu xarici dövlətlərin universitetlərində təhsil alırlar, amma Azərbaycana qayıdandan sonra əmək haqqının azlığına görə burada qalmır və həmin Avropa ölkələrinə qayıdıb gedirlər. Hesab edirəm ki, bizim nazirliklərə, dövlət idarələrinə, müəssisələrinə və təşkilatlarına imkan yaratmalıyıq ki, həmin uşaqlar üçün, qayıdıb gələn mütəxəssislər üçün fərqli maaş təyin etmək imkanı olsun. Tutaq ki, kimsə gəlir, mühəndis təyin olunur. Məsələn, bizdə axı mühəndis üçün də maaşın bir həddi var. İstər Bakıda, istər Londonda, istərsə də Amerika Birləşmiş Ştatlarında universitet qurtarsın, eyni maaş təyin olunur, o maaş da onları qane eləmir. Deyirlər ki, axı, mən gedib bu qədər əziyyət çəkib belə bir nüfuzlu universitet qurtarmışam, başqa yerdə daha yüksək ödənişli iş tapa bilərəmsə, niyə burada işləyim?

Biz dövlət orqanları, dövlət idarələri, müəssisələri və təşkilatları üçün imkan yaratmalıyıq ki, onlar həmin insanlar üçün fərqli əmək haqqı təyin edə bilsinlər. Bir də, hesab edirəm ki, Ziyafət müəllim, Azərbaycanda həmin gənclərin uçotu aparılmalıdır. Bizim elə Milli Məclisdə oturan deputat həmkarlarımızın övladları var ki, artıq uzun müddətdir, xaricdə universitetləri qurtarıblar, qalıb orada işəyirlər. Onlar kadr ehtiyatı kimi yeri gələndə Azərbaycana dəvət olunmalıdırlar. Azərbaycanın belə hazırlıqlı kadrlara çox böyük ehtiyacı var. Bu da təhsillə bağlı məsələ idi, ona görə diqqətinizə çatdırdım. Həmkarlarıma da, Sizə də diqqətinizə görə minnətdarlığımı bildirirəm. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən qanun layihəsinə səs verəcəyəm. Bir neçə məsələyə toxunmaq istəyirəm. Doğrudan da, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, xüsusilə ümummilli liderin hakimiyyətə qayıdışından sonra təhsil sahəsində çox böyük inkişafa nail olunubdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin Prezident seçilməsinin 15 illiyi tamam olur və bu 15 ildə Azərbaycanda təhsil sahəsində çox böyük irəliləyişlər olub, çoxlu sayda təhsil müəssisələri tikilib, abadlaşdırılıb, yenidən qurulub. Bu dövrdə Azərbaycanda 3 mindən artıq yeni məktəblər, bağçalar tikilibdir. Tək elə bu il ərzində 150-dən artıq modul tipli məktəb tikilib və bütün bunlar təhsilin bazasının möhkəmlənməsinə xidmət eləyən amillərdir. Hesab edirəm ki, bu sahədə Təhsil Nazirliyinin də fəaliyyəti təqdirəlayiqdir. Mütəmadi olaraq yeniliklərin tətbiq olunması, yüksək səviyyədə iş aparılması və sair.

O ki qaldı günün birinci yarısında hörmətli həmkarım Qüdrət müəllimin burada qaldırdığı dillə bağlı məsələyə, bilirsiniz ki, Azərbaycan Respublikası Konstitusiyasında da göstərilib ki, dövlət dili Azərbaycan dilidir, təhsil Azərbaycan dilindədir. Amma Azərbaycanda yaşayan digər xalqların da dilləri nəzərə alınır. Azərbaycanda rus dilli məktəblərin sayının çox olması ölkədə o təbəqədən olan əhali ilə bağlı məsələdir. Bu həm də postsovet məkanında qalan müəyyən məsələlərlə bağlıdır. Bəzi insanlar o vaxt bu dildə təhsil alıblar, indi öz övladlarını da, nəvələrini də bu istiqamətə yönəldirlər və sair. İllər keçdikcə, bütün bunlar tədricən qaydaya düşəcək. Tələb, təklif məsələsi var. Bu da sırf tələb, təkliflə bağlıdır. Mən hesab edirəm ki, hər hansı bir siyasətlə bağlılığı olmayan bir məsələdir. Ali məktəblərdə, görürsünüz, ingilis dilində

də, fransız dilində də, rus dilində də fakültələr var. Orta məktəblə bağlı bu məsələ hesab edirəm ki, öz həllini tapacaq və digər dillərdə də məktəblər açılacaqdır. Həm də həmin məktəblərin ödənişli deyil, dövlət hesabına olması mümkündür. Yəni, növbəti illərdə bunlar öz həllini tapan məsələlərdir.

Mən bir məsələni hörmətli İsa müəllimin diqqətinə çatdırmaq istəyirəm. Qəbul qaydalarının dəyişməsi ilə bağlı olan bu məsələ ictimaiyyəti də narahat edir. Bizim bu sahədə sistemli proqramımız olmalıdır. Mən hesab edirəm ki, həm Dövlət İmtahan Mərkəzi, həm Təhsil Nazirliyi, həm Milli Məclisin müvafiq komitəsi, həm də Elmlər Akademiyası və digər aidiyyəti strukturlar, lazımdırsa, rektorlar dəvət olunmalı, oturub işləməli, vahid bir strategiya müəyyənləşdirməlidirlər. Çox gözəl haldır ki, son dövrlər bu sahədə vəziyyət Təhsil Nazirliyi tərəfindən xeyli dərəcədə yüngülləşdirilib. Şagirdlər 11-ci sinfi bitirəndə 3 imtahan verməklə növbəti mərhələ üçün bal qazanırlar və sonra buna uyğun seçim edirlər. Amma təsəvvür edin, bir nəfər bu il 11-ci sinifdə oxuyur və imtahanları verməyə hazırlaşır. 6 ay qalmış qaydalar dəyişir və o, artıq tamam başqa istiqamətdə hazırlaşmaq məcburiyyətində qalır. Minlərlə insandır, bir nəfər deyil, iki nəfər deyil, üç nəfər deyil. İndi bu hansı qaydada imtahan verməlidir. Axı bu tamam başqa istiqamətdə hazırlaşıb. Qabaqcadan bunu müəyyənləşdirmək lazımdır. Yaxud da qeyd olunmalıdır ki, 9-cu sinifdə oxuyanlardan yuxarı bu tətbiq olunmur. Yeni qayda 8-ci sinifdə oxuyanlara və daha aşağı siniflərə tətbiq olunmalıdır. Şagird bilsin ki, 9-cu sinfə çatandan sonra hansı istiqamətə yol tutmalı, hazırlaşıb ali məktəbə daxil olmalıdır. Hamımız oxumuşuq, təhsil almışıq, bilirik ki, yarım ilə hazırlaşıb ali məktəbə

qəbul olmaq çox çətindir, buna azı 3 il vaxt lazımdır. Üç il ərzində hazırlaşıb, müəyyənləşdirdiyin istiqamətdə hərəkət etmək daha düzgün olar. Ona görə də mən hesab edirəm ki, birlikdə bu məsələni həll edib vahid bir forma tətbiq etmək lazımdır ki, vətəndaşlarımız övladlarının gələcəyi ilə bağlı olan addımları arxayın şəkildə, düzgün müəyyənləşdirə bilsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Zahid Oruc.

**Z.Oruc**. Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim! Həmkarlarım məni danışmağa sövq elədilər. Keçən dəfə birinci oxunuş zamanı bir neçə suallar da qalxmışdı, əslində, onda da çıxışa yazıldım, sadəcə, aydınlıq gətirmək üçün.

Birincisi, xaricdə təhsil proqramı, həqiqətən də, bir ölkə üçün çox böyük siyasi, iqtisadi, mənəvi, elm və təhsil baxımından əhəmiyyət daşıyır. Çünki açıq demək lazımdır ki, Sovetlər Birliyi ilə nə qədər öyünsək də, o birliyin ən böyük yetirməsi Rusiyadır, Rusiyanın dövlət elitasına daxil olan kişilərin əksəriyyətinin balaları Qərb universitetlərində oxuyublar. O üzdən biz sovet dövləti ilə nə qədər öyünsək də, onun universitetləri dağıldı, təhsil sistemi müasir dövrün çağırışlarına uyğun olmadı. Bir dəfə Almaniyada səfərdə olanda bizi universitetlərdən birinə apardılar, dedilər ki, indi sizin üçün BMT dərsləri keçiriləcək. Doğrudan, adamda ilk təsəvvür bu olur ki, BMT dərsləri yəqin BMT haqqında olan dərslərə aid edilir. Sonra gördük ki, sən demə, tələbələrin özləri-özlərini idarə etməsi sisteminə, dərs prosesində danışılanı qavradığını göstərməsinə, özlərinin o prosesdə interaktiv formada canlı iştirak etmələrinə, sovet diktat modelindən fərqli üsula "BMT dərs modeli" deyirmişlər. Ona görə biz çox səmimi olaraq xaricdə təhsil proqramının davam etməsini istəyirik. Əlbəttə ki, bunu mövcud sənədin fəlsəfəsinə,

ruhuna aid məsələ kimi demirəm, hamımız qəbul edirik ki, bu kvota lazımdır. Dövlət başçısı uzun illərdir ki, İslam ölkələri ilə iqtisadi, siyasi, mədəni birliklərin inkişafı məqsədi ilə çox mühüm iş aparır. O üzdən bu kvota çox önəmlidir. Amma soruşsaq ki, biz özümüz balalarımızı, Türkiyəni çıxmaq şərtilə, hansı islam ölkələrinə təhsil üçün göndərərdik, məncə, səmimi cavab versək, çox az hissəmizdən müsbət cavablar gələcək. Əksəriyyətimiz Qərb universitetlərinə meyilliyik, çünki onların nüfuzu var, o nüfuz elə-belə yaranmayb. Niyə? Bunun başqa əsasları da var.

57 islam ölkəsi dünya beynində nə qədər yer tutur? 57 islam ölkəsi dünya universitetlərinin neçə faizini yaradıb? 57 islam ölkəsinin nümayəndələri dünya Nobel mükafatçıları sırasında nə qədər yer tutub, ixtiraların nə qədəri onların adı ilə bağlıdır? Bir kiçicik tənqid deyən kimi, dərhal Orta əsrlər dövrünün, İslam intibahının nümunələrini ortaya qoyurlar ki, XII əsrə qədər biz lider olmuşuq. A qardaş, gözəl, əla, amma sonra mövqelər itirilibsə, indi biz neyləyək ki, itirilib?

Keçən dəfə burada çox maraqlı bir fikir səsləndi, əvvəlcə onu deyim. Xaricdə təhsil prosesi davam edir, cənab Prezidentin qəbul etdiyi məlum proqram bu gün yaradılmış Gənclər Fondu vasitəsilə davam olunur. Lakin onlar bu il mexanizmi sona çatdıra bilmədilər. Yəni onların rəhbəri Fərid Cəfərov adlı gənc, özü də işıqlı bir adamdır, hiss olunur ki, o da çox can atır ki, bu sistem işləsin.

Yeri gəlmişkən, guya belə bir qorxu varmış ki, Azərbaycan dövləti düşünür ki, kimsə gedib ya gəlməyəcək, ya da özü ilə bərabər Qərb ideallarını, düşüncə sistemini, idarəçilik mexanizmlərini gətirəcək. Elə hesab edirəm, Cənubi Qafqazda Azərbaycan xalqı qədər normal, ədalətli

sistem, ədalətli idarəetmə və sair istəyən ikinci xalq yoxdur. İndi inqilabı bir az gürcülər eləyib, sonra ermənilər qoşulub, amma Azərbaycan xalqının ədalət idealları böyükdür.

Nə demək istəyirəm? Təhsil prosesindən siyasət üçün istifadə varmı? Bəli, var. Biz də bundan faydalanmaq istəyərik? İstifadə eləyək. Mən düşünürəm ki, gələcəkdə qrant sistemi təkcə islam ölkələrinə deyil, Qərb dövlətlərinə də aid olmalıdır. O ölkələrin vətəndaşları da gəlsin, Azərbaycanın verdiyi qrantdan istifadə etsinlər. Məsələn, Almaniyanın "DAAD" proqramı və ya başqa proqramları var, burda bizim çox gözəl ziyalılarımız var, bilirlər, bizim balalarımız bal qazanıb gedib orada təhsil alırlar. Mən 26–27 yaşında bir gənc azərbaycanlı ailəsi tanıyıram. Hər ikisi Almaniyadan 32–34 min avroluq proqram qazandılar və getdilər. Kiçik bir yol puluna ehtiyacları var idi, o da həll olundu.

Nə demək istəyirəm? Azərbaycan balalarımızın beynində Qərbdən gələn hansısa nəzəriyyələrdən narahat deyil, əksinə, Qüdrət müəllim çox haqlı olaraq dedi, biz öz universitetlərimizin statusunu artırmalıyıq. Gerçəkdən, bu çox önəmlidir. Bu proses son illər ərzində müsbət mənada gedir. İndi biz universitet deyəndə qafamızda alğı-satqı, ticarət, zənglə qiymət yazılan sistemi canlandırmırıq. Universitetlərlə bağlı cəmiyyətin təəssüratı dəyişir. Çünki, həqiqətən də, Amerikanın gücü universitetlərindədir. Amerika dünyanı universitetləri, beyni ilə ələ keçirir, beyin işğalı birinci baş verir, ardınca tanklar, toplar gəlir. Amerikanın tankları da hər yerə getmir ki? Ona görə mən hesab edirəm, biz birinci növbədə bunu nəzərə almalıyıq.

Ötən dəfə səslənən bir fikrə də münasibət bildirmək istəyirəm. Deyirdik, gəlib burada oxuyanlar elçiyə, səfirə

çevrilirlər, hətta Azay müəllim bu gün islam ölkələrinin birində baş nazir olan şəxsin vaxtilə bakılı tələbə olduğunu dedi. Biz onları çox görürük. Necə ki, biz istəyirik, Bakıya gəlib, Bakı təəssübü çəksinlər, Şərq ənənələrini, Azərbaycan xalqının mental dəyərlərini daşıyıb aparsınlar, bizim də Belçikaya, Almaniyaya, Britaniyaya gedən balalarımız onların, müəyyən mənada, müsbət ideallarını gətirəcəklər bura. Bundan narahat olmaq lazım deyil. Zatən, 100 il əvvəl bizim bu məkanda təhsil sistemimizin inkişafı elə bir qədər xaricdə təhsil almaqdan keçib.

Rus dilindən də elə qorxmayaq. Mən nəyi müşahidə eləmişəm? Öz övladlarını və nəvələrini rus sektorunda oxudan adamlar Azərbaycan dilinin böyüklüyündən və gücündən vətənpərvərcəsinə bəhs edirlər. A qardaş, Məhəmməd Əmin və Cümhuriyyət qurucularının hamısı bir neçə dil bilirdilər. Dilin məhdudluğu şüur məhdudluğu da yaradır, axı. Biz nə qədər anti-Rusiya olsaq da, anti-İran olsaq da, onlarla qonşuluqda olmağımızı nəzərə almalıyıq. 17 milyon yarım kvadratkilometrlik əraziyə bu məmləkətin övladları getməlidirlər. Yoxsa, siz istəyirsiniz, gedib orada ancaq xidmət sektorunda olsunlar? İstəyirsinizsə ki, azərbaycanlılar Rusiyanın ən yüksək kürsülərinə daşınsınlar, birinci dili bilməlidir. Dil bilmədən gedib sıravi əməkçi qiyafətində nə qədər qalacaqlar? Orada nəinki azərbaycanlıların, bir çoxlarının obrazının dəyişməsinin yolu birinci dildən, sonra onların ali məktəblərində təhsil almaqdan keçir.

Keçən dəfə Putinin Azərbaycana səfəri zamanı teleefirdə titrlər gördüm. Rusiyada bu gün 11 min azərbaycanlı tələbə təhsil alır, onların 1000 nəfəri Rusiya dövlətinin hesabınadır. Bəli, bu, siyasətdir. Təhsil siyasətdir, öz ideologiyasını yeritmək vasitəsidir. Biz də bunu nəzərə

almalıyıq. Ona görə də mən bu kvotanı alqışlayıram. Amma gələcəkdə bunun davam edəcəyini düşünürəm və hesab edirəm ki, ümumiyyətlə, təhsil sisteminə, xaricə gedənlərimizlə yanaşı, xaricdən gələnlərə də önəmli yer verməliyik.

Cənab Prezident tərəfindən o vaxt Fransa Prezidentinin iştirakı ilə Bakıda bir Fransa universiteti yaradıldı. İki gün öncə bunların yetirmələrinə, lap ibtidai sinif yaşlarından son ana qədər keçdikləri yola baxdım, onların təhsil sistemi ilə tanış oldum. Həqiqətən, valeh oldum. Baxmaq imkanınız olmayıbsa, arxiv vasitəsi ilə baxmaq mümkündür. Nə demək istəyirəm? Biz Qərbdən müəllim gətirməyə də, universitetlərin, Qüdrət müəllim dediyi kimi, filiallarını yaratmağa da baxmalıyıq ki, bu məkanda bizim təhsil meyarlarımız yüksəlsin. Biz ayrı-ayrı universitetlərimizə ağız büzüb özümüz, səviyyəmiz haqqında, yaxud alimlərimizin sayı, akademiklərimizin həqiqi, yaxud qeyri-həqiqi akademik olması haqqında fikirlər yürütməyək. Bizim yolumuz dünya təhsilinə inteqrasiyadan keçir, onun da bir qolu bugünkü layihələrdir. Mən buna səs verəcəyəm. Təşəkkür edirəm ki, səbrlə dinlədiniz, çox sağ olun.

**Sədrlik edən**. Valeh müəllim, buyurun.

**V.Ələsgərov**. Ziyafət müəllim, mən təklif edirəm ki, biz təqdim olunan bu dəyişiklikləri diqqətlə oxuyaq.

7.3-cü maddədə "Azərbaycan" sözü "tədris" sözü ilə əvəz edilsin. Razıyıq, yoxsa yox? 22.12-ci maddədə "müqavilələrə" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsis etdiyi təhsil qrantı proqramına" sözləri əlavə edilsin. Razıyıq, yoxsa yox? 44.1 maddədə "kvota" sözündən sonra "təhsil qrantı proqramı" sözləri əlavə edilsin. Razıyıq, yoxsa yox? Nəhayət, "müvafiq icra hakimiyyəti orqanının müəyyən

etdiyi orqanın (qurumun) təsis etdiyi təhsil qrantı proqramı üçün ölkələri, ölkələr üzrə kvotaları, namizədlərin seçim meyarlarını və bunların əsasında qrant alacaq şəxslərin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyənləşdirir" məzmunlu 44.1-1-ci maddəsi əlavə olunur. Razıyıq, yoxsa yox?

Buna səs verək, ondan sonra təhsil haqqında, başqa nələr haqqında danışmağa vaxtımız qalsa, danışarıq. Bizim işimiz bunları müzakirə edib "hə", "yox" deməkdir. Belə getsə, biz bu boyda proqramı çatdıra bilməyəcəyik axı. Üzr istəyirəm.

**Sədrlik edən**. Çox sağ olun, Valeh müəllim, təşəkkür edirəm. Mən Valeh müəllimlə tamamilə razıyam. Bəzən qanunun predmeti, mənası, fəlsəfəsi qalır kənarda, yadımıza nə düşürsə, elə ondan danışırıq. Zamanımız olarsa, keçən dəfə bunu elədik, hörmətli cənab Sədr iclasdan sonra yarım saat vaxt ayırdı, burada hərə öz fikrini dedi.

Mən çıxışlara qulaq asdım, yekunlaşdırmaq üçün hörmətli həmkarlarımın fikirlərinə qısaca olaraq öz münasibətimi bildirmək istəyirəm.

Burada Rusiya universitetlərinin Azərbaycana gəlməsi ilə bağlı fikir səsləndi, daha doğrusu, Qüdrət müəllim fikir səsləndirdi. Mənim fikrimə görə, belə şeylərdən çəkinmək, qorxmaq lazım deyil. Bu gün Azərbaycanda Rusiya ali məktəblərinin iki filialı fəaliyyət göstərir. Qoy elə 3-ü də gəlsin, 5-i də gəlsin. Fransa məktəbi fəaliyyət göstərir, fransız universiteti fəaliyyət göstərir. Mən çox arzulayıram ki, burada Sorbonnanın da, Oksfordun da filialı olsun. Universitetlə birlikdə qabaqcıl elm, təhsil də gəlir. Qoy gəlsin, gözəldir bu. Bundan çəkinmək lazım deyil. Amma mən, – birinci dəfə deyil Qüdrət müəllim səsləndirir, – xaricdə təhsil alıb gələnləri Azərbaycan tələbə-

lərindən fərqləndirmək və onlardan yuxarı qoymaq fikri ilə əlbəttə, razı deyiləm, qəbul edə bilmirəm.

Mən xahiş edirəm, Azərbaycan təhsilini, Azərbaycan tələbəsini bu qədər aşağılamaq olmaz. Siz götürün Bakı Dövlət Universitetini, götürün ADA Universitetini, götürün Bakı Ali Neft Məktəbini. Görün necə gözəl kadrlar yetişdirirlər. Məgər xaricdə oxuyanlardan əskikdirlər? Bu nə deməkdir? Bu kultu yığışdırmaq lazımdır. Xaricdə bütün ali məktəbləri siz fetişləşdirmisiniz. Guya orada qeyri-adi savad verirlər. Elə deyil. Mən sizə öz fəaliyyətimdən misallar deyim. Mənim tələbələrimin 22-si, Hadi müəllim, magistraturanı xaricdə – Almaniya, Fransa, İngiltərə, Türkiyədə oxuyublar. Onların 18 nəfərinə mən şəxsən kafedra müdiri, professor kimi zəmanət vermişəm. Qayıdıblar gəliblər. Onların 80 faizi həmin ali məktəblərin magistraturasını, bizim dillə desək, qırmızı diplomla qurtarıblar. Nəyin hesabına? Azərbaycanda aldıqları bakalavr təhsilinin hesabına. Bunun qabiliyyəti yoxdursa, necə gedib orada magistraturanı əla qiymətlərlə bitirib.

Bu millətin çox qabiliyyətli övladları var, bizim gözəl təhsil sistemi var. Hörmətli həmkarlar, mən sizdən xahiş edirəm, gəlin Bakı Dövlət Universitetinə, başqa ali məktəblərə, görün necə gözəl, müasir səviyyədə dərslər keçilir. Biz elə sovet təfəkkürü ilə, yox bizdə təhsil yoxdur, deyirik. Necə yoxdur? Təhsil yoxdur, ancaq 5 nəfərimiz 9-cu sinif üzrə beynəlxalq fizika olimpiadasından qızıl medal gətirib. Nəyin hesabına gətirib? Bu, Azərbaycanda təhsilin hesabınadır. Onlar fizikanı burada öyrəniblər. Yəni ali məktəblərə gedək, baxaq, görək ki, bu dərslər, həqiqətən, interaktiv səviyyədə, formada gözəl keçirilir, gözəl biliklər verilir.

Mən, əlbəttə, tərəfdarıyam, Azərbaycan tələbələri,

Azərbaycan insanı, Azərbaycan övladı nə qədər istəyir gedib xarici ölkələrdə oxusun. Bu çox gözəl şeydir. Amma buna rəğmən, Azərbaycan təhsilini aşağılamaq heç də yaxşı hal deyil. Mən yenə deyirəm, gözəl nümunəvi universitetlərimiz, nümunəvi, üzağardan tələbələrimiz var. Mən faktı sizə dedim.

Mən sizdən xahiş edirəm, əgər buna şübhəsi olan deputat həmkarlarım varsa, sizi dəvət edirəm həftə ərzində, gələn həftə gəlin, Bakı Dövlət Universitetinin istənilən fakültəsini seçin. Gedək bir yerdə, görək necə dərs keçirlər. Vallah, çox  yaxşı dərs keçirlər, çox gözəl təhsil verirlər, elm verirlər. Yəni Azərbaycan təhsili haqqında bu qədər neqativ fikirdə olmayın, xahiş edirəm.

Bizim çox gözəl təhsilimiz var, gələcəkdə bundan da yaxşı olacaq, inşallah. Elm də həmçinin. Ona görə mən bu məsələni uzatmaq istəmirəm. Səsə qoyaq. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.09 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Xahiş edirəm, bütövlükdə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. İkinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bu layihə də paket şəklində daxil olub. Bilirsiniz ki, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunu biz qəbul etmişik. Faktiki olaraq bu, uyğunlaşdırma xarakteri daşıyır. Səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, ikinci oxunuşun tələbinə müvafiq olaraq qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 17.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.11 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 80 |
| Nəticə: Yetərsay yoxdur | |

Yetərsay yoxdur. Xahiş edirəm, səsvermədə diqqətli olaq. Bir daha xahiş edirəm, səs verək.

| **Səsvermənin nəticələri** | (saat 17.12 dəq.) |
|---|---|
| Lehinə | 81 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 81 |
| Nəticə: Yetərsay yoxdur | |

Nə baş verir? Niyə səs vermirsiniz? Mən, xahiş edirəm, səsvermədə diqqətli olaq. Buyurun, bir daha səs verək.

| **Səsvermənin nəticələri** | (saat 17.13 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında. İkinci oxunuş. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim,

hörmətli deputat həmkarlarım, bildirirəm ki, “Tütün və tütün məmulatı haqqında” Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi  Aqrar komitənin iclasında və Milli Məclisin plenar iclasında birinci oxunuşda qanunvericiliyə uyğun olaraq təqdim olunduğu variantda müzakirə edilmişdir. Lakin layihə ikinci oxunuşda Aqrar komitənin iclasında müzakirə edilərkən deputat həmkarlarım layihənin 4 və 5-ci bəndlərində “Tütün və tütün məmulatı haqqında” Qanunun 13.3-cü və 14.3.4-cü maddələrində nəzərdə tutulan dəyişikliyə  düzəliş edilməsini məsləhət gördülər. Ona görə də layihənin 4 və 5-ci bəndləri sizə təqdim olunan variantda yox, aşağıdakı kimi verilir: 13.3-cü maddədə “və tütün qatranının” sözləri “tütün qatranının və karbon monoksidinin”  sözləri ilə əvəz edilsin. 14.3.4-cü maddədə “siqaret” sözü “tütün” sözü ilə və  “tütün qatranının” sözləri isə “tütün qatranının və karbon monoksidinin” sözləri ilə əvəz edilsin.

Bu düzəlişin mahiyyəti ondan ibarətdir ki, hər iki maddəyə əlavə olunan “karbon monoksidinin”  sözləri “tütün qatranı” sözlərindən əvvəl yox, sonra yazılmalıdır. Çünki qanunun 12-ci maddəsinin bütün bəndlərində, 15.3.3 və 16.2.4-cü maddələrində ardıcıllıq bu qaydada qeyd edilir. Qanunun mətnində uyğunluq təmin edilməlidir.

Layihəyə edilən bu  düzəliş layihəni qanunvericilik təşəbbüsü qaydasında təqdim etmiş orqanla razılaşdırılmışdır. Layihə ikinci oxunuşun tələblərinə tam cavab verir və qanun layihəsinin lehinə səs verməyi həmkarlarımdan xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Eldar müəllim, sağ olun. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl əsas kimi, xahiş edirəm, qanun layihəsini qəbul edək, ondan sonra müzakirəyə keçək.

| **Səsvermənin nəticələri** | (saat 17.16 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.17 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə qanun layihəsinə münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 17.17 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. İkinci oxunuş. Rafael Hüseynov yoxdur, kim məlumat verəcək?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Jalə xanım, buyurun.

**J.Əliyeva,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Ziyafət müəllim, icazə versəydiniz, mən hər 3 qanun layihəsini eyni vaxtda təqdim edərdim. Çünki mahiyyət etibarı ilə hər üçü eyni fikirləri ehtiva edir. Hörmətli həmkarlar...

**Sədrlik edən.** Üzr istəyirəm, Jalə xanım. Birinci oxunuş olsa idi, o, mümkün idi. Amma hamısı ikinci oxunuşdadır, ona görə biz məcburuq ayrı-ayrı səsvermə keçirək. Ona görə xahiş edirəm, birinci barədə məlumat verin, biz müzakirə edək, sonra keçək ikinciyə, sonra üçüncüyə.

**J.Əliyeva.** Deməli, müzakirənizə təqdim edilən qanun layihəsi möhtərəm cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentimizə ünvanlanmışdır. Nəzərinizə çatdırmaq istəyirəm ki, bu layihə 2017-ci il dekabr 1-də qəbul edilmiş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırma məqsədi daşıyır.

Sözün əsl mənasında, sağlam cəmiyyətin formalaşması və inkişafı genefondumuzun saglamlaşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Diqqətinizə təqdim olunan "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda edilməsi nəzərdə tutulan dəyişiklik qanunun "Yayımçıların hüquq və vəzifələri" adlanan 40-cı maddəsinə iki mühüm əlavəni nəzərdə tutur. Bu

əlavələr yayımçının vəzifəsi olaraq təsbit edilir.

Birinci vəzifə tütündən istifadə prosesinin nümayiş etdirilməməsi və ya bu prosesdən istifadənin nümayiş etdirildiyi əsərlərin açıq yayımlanmaması, digər vəzifə isə tütün prosesindən istifadənin zərərli təsirləri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının xəbərdaredici, maarifləndirici və tərbiyəvi verilişlərinə ayda 90 dəqiqədən az olmayaraq, günün ən baxımlı saatlarında efir vaxtının ayrılmasından və bu verilişlərin surətlərinin hər ay Milli Televiziya və Radio Şurasına təhvilinin təmin edilməsindən ibarətdir. Yəni əlavə bundan ibarətdir. Mən hörmətli həmkarlarımı səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Jalə xanım. Xahiş edirəm, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl ona əsas kimi səs verək, qəbul edək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---:|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, qanun layihəsinin qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsinə bütövlükdə səs verməyinizi rica edirəm.

| **Səsvermənin nəticələri** | (saat 17.22 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, yenə ikinci oxunuş. Jalə xanım, buyurun.

**J.Əliyeva.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Müzakirənizə təqdim olunan "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Burada 7-ci maddəyə, bir az əvvəl səs verdiyimiz qanun layihəsində olduğu kimi, iki oxşar əlavə edilir və bu əlavələrin məzmunu eyni ilə əvvəlki qanun layihəsinin mətnini təkrarladığından düşünürük ki, bu maddənin üzərində də

çox dayanmağa ehtiyac yoxdur. Bu qanun layihəsində də mahiyyət etibarı ilə heç bir şey dəyişmir və mən sizi səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun, Jalə xanım. Xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 17.23 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.24 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 17.25 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs verməmdi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş). Jalə xanım, buyurun.

**J.Əliyeva.** Təşəkkür edirəm. Diqqətinizə təqdim edilən "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan dəyişiklik bu Qanunun "Teatrların vəzifələri" adlanan 11-ci maddəsinə edilən əlavə ilə bağlıdır. Bu maddəyə əsasən teatr tamaşalarında tütündən istifadə prosesinin nümayiş etdirilməsi qadağan olunur.

Bu dəyişiklik də məhz "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsindən qaynaqlanır. 14.1.4-cü maddəyə əsasən televiziya və videofilmlərdə, teatr tamaşalarında, radio, televiziya, video və kinoxronika proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütünün istifadəsi prosesinin nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsi ilə açıq yayımlanması qadağan edilir.

Hörmətli həmkarlarımı bu qanun layihəsinə də ikinci oxunuşda səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun, Jalə xanım. Qanun layihəsini müzakirə etmək üçün əsas kimi qəbul edək, səs verək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 17.27 dəq.) |
| --- | --- |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı fikir söyləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yəni, əslində hər şey aydındır orada. Buyurun, onda xahiş edirəm, qanun layihəsinin qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.28 dəq.) |
| --- | --- |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə qanun layihəsinə, lütfən, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 17.28 dəq.) |
| --- | --- |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, bir az da səbrinizi basın, az qalıb, yarım saat vaxtımız qalıb. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. İkinci oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri. Vergi Məcəlləsinin 44-cü maddəsində dəyişiklik nəzərdə tutulur. Bu dəyişiklik də "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının müvafiq qanununun icrası məqsədi ilə hazırlanmışdır. Biz bunu ətraflı müzakirə etdik. Təklif olunan maddə öz qüvvəsində qalır. Ona görə millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Zəhmət olmasa, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Müzakirəyə başlayırıq. Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.31 dəq.) |
| Lehinə | 82 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun və zəhmət olmasa, bütövlükdə qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.31 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ – Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsi, yenə ikinci oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, eyni maddə, eyni dəyişiklik. Vergi Məcəlləsində olan eyni dəyişiklik Gömrük Məcəlləsinin 323-cü maddəsində öz əksini tapacaqdır. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Buyurun, qanun layihəsini əsas kimi qəbul edək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.32 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə əlaqədar çıxış etmək, fikir söyləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdursa, onda, xahiş edirəm, qanun layihəsinin təsdiqinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.33 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bir də bütövlükdə, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.34 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli həmkarlar, istəyirəm, bir məsələni sizinlə müzakirə edək. Biz səhərdən xeyli işlədik, özü də məhsuldar işlədik. Hesab edirəm ki, siz də yorulmusunuz. Etiraz etməsəniz, yarım saatımız var, amma Məclisi bununla yekunlaşdıraq, ayın 16-da davam edərik. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yaxşı, sağ olun, bununla da iclasımız sona çatır.